# GENDER (KİŞİ VƏ QADINLARIN) BƏRABƏRLİYİNİN TƏMİNATLARI HAQQINDA

Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci il üzrə

# MƏLUMATI



BAKI - 2022

# MÜNDƏRİCAT

**GİRİŞ.** ... 01

**1. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri (*Maddə 2.0.4, 3, 4, 5, 6*)** ... 03

**1.1** Milli qanunvericiliyin təkmilləşdirilməsi və normativ hüquqi aktların qəbul edilməsi ... 04

**1.2** Gender bərabərliyi mədəniyyətinin təbliği ... 09

**1.3** Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması ... 11

**1.4** Dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin qorunması ... 22

**2. Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı (*Maddə 7-16*)** ... 33

**2.1** Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi ... 34

**2.2** Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi ... 39

**2.3** Qeyri-hökumət təşkilatlarının, həmkarlar ittifaqlarının və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi ... 47

**3. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələr** ... 51

**3.1** Nəticələr ... 52

**3.2** Qarşıya qoyulan vəzifələr və tövsiyələr ... 52

## İXTİSARLAR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **UADM** | Uşaq və Ailələrə Dəstək Mərkəzi |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **EKTİS** | Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi |
| **AHİK** | Azərbaycan Həmkarlar ittifaqları Konfederasiyası |
| **HİRK** | Həmkarlar İttifaqı Respublika Komitəsi |
| **CEDAW** | Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyası |
| **AFAQ** | Aqrar Fəaliyyətli Azərbaycan Qadınları |
| **GIZ** | Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **FAO** | Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədləri |
| **AQSİA** | Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası |

# GİRİŞ

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Prezidentin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, respublikanın tərəfdar olduğu beynəlxalq konvensiyaları, dövlət proqramlarını rəhbər tutaraq müvafiq sahələr üzrə vəzifələrini icra edir.

Komitə 2021-ci ildə əsasnamə ilə müəyyən edilmiş istiqamətlər üzrə və iş planına uyğun fəaliyyət göstərmişdir. Öz fəaliyyətində o, bütün dövlət orqanları ilə səmərəli əməkdaşlıq etmiş, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə birgə layihələr icra etmişdir. Komitə tərəfindən təşkil olunan tədbirlərdə yerli icra, hüquq-mühafizə və məhkəmə orqanlarının, habelə yerli özünüidarəetmə orqanlarının nümayəndələri yaxından iştirak etmişlər.

Məlumat "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci il üzrə məlumatı ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərini, o cümlədən dövlətin vəzifələrini, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı görülmüş işləri və qarşıya qoyulan plan və tövsiyələri özündə əks etdirir.

Məlumat "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanun" unun müvafiq maddələrindən irəli gələn üç istiqamət üzrə tərtib edilmişdir.

- **"Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri" bölməsinə gender bərabərliyinin təmin edilməsi ilə bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi və normativ hüquqi aktların qəbul edilməsi, təsdiq edilmiş yeni hüquqi sənədlər, gender bərabərliyi mədəniyyətinin təbliği, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin qorunmasına dair məlumatların icmalı daxil edilmişdir.**
- **"Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı" bölməsi əmək hüquqlarının həyata keçirilməsi, xüsusilə də qadınlar və kişilər üçün qeyri-ənənəvi peşə sahələrində gender fərqlərinin aradan qaldırılması, məşğulluğun dəstəklənməsi, habelə təhsilin ayrı-ayrı pillələrində təhsil hüquqlarının həyata keçirilməsində yaradılmış bərabər imkanlara, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsinə dair məlumatları əhatə edir.**
- **"Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində qarşıya qoyulan vəzifələr və tövsiyələr" bölməsində isə CEDAW tövsiyələri və gələcək çağırışların idarəedilməsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi qeyd edilmişdir.**

Gender bərabərliyi, qadın və uşaq hüquqları sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi və yeni normativ hüquqi aktların qəbul olunması bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Hesabat dövrü ərzində bir sıra mühüm qanunvericilik təşəbbüslərinin layihələri hazırlanmış və aidiyyəti qurumlara təqdim olunmuşdur.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respub–likası Qanununun yaratdığı mexanizmlərin əlçatanlığını, gender bərabərliyi sahəsində ictimiyyətdə maarifləndirmə işlərinin dayanıqlılığını təmin etmək məqsədilə yaradılan "Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin" (UADM) regionlarda fəaliy–yəti uğurla davam etdirilmişdir. Belə ki, 2021-ci il ərzində bölgələrdəki mərkəzlərə qadınlar tərəfindən daxil olan müraciətlərin təhlili və araşdırılması davam etdirilmişdir, qaldırılan məsələlər aidiyyəti qurumlarla bərabər həllərini tapmışdır. Eyni zamanda qadınların hüquqlarının qorunması və dövlət tərəfindən təmin edilən müdafiə mexanizmlərinin gücləndirilməsi istiqamətində maarifləndirmə işləri aparılmışdır. Uşaq və Ailələrə Dəstək Mərkəzləri respublikanın regionlarında gender bərabərliyi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının Mərkəzi icra hakimiyyəti orqanlarının 2021-ci il üzrə təqdim etdiyi məlumatlara əsasən gender balansının qorunması sahəsində

müsbət dinamika özünü göstərməkdə davam etmişdir. Mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarında rəhbər vəzifədə çalışan qadınların sayı keçən ilə nisbətən artmışdır. Ənənəvi kişilərin fəaliyyət sahəsi hesab olunan hüquq mühafizə orqanlarında xidmət etməyə marağı olan qadınların sayında da artım müşahidə olunmuşdur.

İdarəetmənin müxtəlif sahələrində isə qadınların kişilərlə bərabər təmsilçiliyi tam təmin olunmasa da, bu sahədə inkişaf dinamikası mövcuddur. Qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarında qadınların təmsilçiliyi yüksələn xətt üzrə davamlı trend halında formalaşmaqdadır.

Beynəlxalq hesabatlarda da qeyd edildiyi kimi, dünyada elm və təhsil sahəsində kişilərin sayı qadınlarla müqayisədə artıqdır. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında 2021-ci il üzrə məlumat hazırlanarkən toplanmış statistika və təhlil onu deməyə əsas verir ki, Azərbaycanda elm və təhsilin əksər sahələrində gender bərabərliyinin təminatı prizmasından qadınların sayı kişilərdən artıqdır.

Hesabatda qadın sahibkarlığının inkişafının təşviqi, kiçik və orta sahibkarlar arasında qadın sayının artım dinamikasının göstəriciləri və səbəbləri, o cümlədən özünüməşğulluq sahəsində gender bərabərliyinin təmin olunması üçün respublikada Dövlət Komitəsi və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən birgə həyata keçirilən fəaliyyətlər haqqında məlumatlar da əks olunmuşdur.

Qadınların aqrar sektora artan marağı da gender bərabərliyinin təminatı kontekstindən hesabatda əks olunmuşdur. Dövlətin geniş subsidiya dəstəyi siyasəti və elektron idarəetmə sistemlərindən istifadə imkanları qadın fermerlərinin sayında artımı şərtləndirir.

İnformasiya Kommunikasiya Texnologiyaları sektorunda gender bərabərliyinin təmin olunması ilə əlaqədar Azərbaycanda ilk dəfə olaraq keçirilən "Gender bərabərliyi" hakatonu da bu sahədə bir yenilikdir.

Məlumatda həmçinin 2021-ci ildə çoxsaylı Beynəlxalq Tərəfdaşlıq Proqramları çərçivəsində həyata keçirilən inkluziv layihələr haqqında məlumatlar da qeyd edilmişdir.

Hesabatın sonuncu bölməsində gender bərabərliyinin təmin edilməsi sahəsində BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvesiyasının tövsiyələrinin adaptasiyası və uğurlu tətbiqi, həmçinin dünya trendlərini nəzərə almaqla qarşıdakı müddətlər ərzində məqsədəmüvafiqliyi və gerçəkləşməsi zəruri olan tədbirlər haqqında məlumatlar da əks edilmişdir.

Hesabat hazırlanarkən çoxsaylı etibarlı analitik və statistik məlumat mənbələrinə (Dünya İqtisad Forumu, Dünya Bankı, Beynəlxalq Əmək Təşkilatı və digərləri) istinad edilmişdir. Dünya trendləri və onların Azərbaycanla korrelyasiyası müqayisəli təhlil edilmişdir.

### *Hazırkı templə regionlar gender boşluğunu hansı müddətə tamamlaya biləcəklər*



# 1-ci BÖLMƏ

**Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri**
(Maddə 2.0.4,3,4,5,6)

## 1.1. Milli qanunvericiliyin təkmilləşdirilməsi.

Ötən ildən başlayaraq hesabat dövründə də gender bərabərliyinin əmək münasibətləri sahəsində təmin edilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi prioritet məsələ olaraq gündəmdə olmuşdur. Bu sahədə ailə öhdəliyi olan işçilərin valideynlik vəzifələrinin həyata keçirilməsində bərabər təminatların müəyyən edilməsi və qadınların məşğulluq imkanlarının genişləndirilməsi kimi mövzular media və vətəndaş cəmiyyəti də daxil olmaqla müxtəlif səviyyələrdə müzakirələrin predmeti olmuşdur.

- **Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı irəli sürülən və ən çox dəstəklənən təkliflər atalar üçün ödənişsiz məzuniyyət hüququnun müəyyən edilməsi və qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin sayının azaldılması olmuşdur.**

Nəzərə alınmalıdır ki, hər iki məsələ ölkəmiz tərəfindən ratifikasiya edilmiş beynəlxalq sənədlərlə tam uzlaşır.

Belə ki, Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1003-IIIQ nömrəli Qanunla qoşulduğu Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyası üzv dövlətlərin üzərinə iş və ailə vəzifələrinin həyata keçirilməsində kişi və qadınlar üçün bərabər hüquq və imkanların təmin edilməsi öhdəliyi qoyur. Konvensiyaya görə bu təminatlar həmçinin həmkarlar ittifaqları və işəgötürənlərin özləri tərəfindən verilə bilər. Yaxşı bir haldır ki, bir sıra dövlət və iri özəl təşkilatların kollektiv müqavilələrində ailəli işçilər üçün AR Əmək Məcəlləsində müəyyən edilmiş imtiyazlardan daha geniş imtiyazlar nəzərdə tutulur.

Lakin bərabərliyin təmini baxımından əmək qanunvericiliyinin təkmilləşdirilməsi, xüsusilə də valideyn olan kişilərin ödənişli məzuniyyətə olan hüququnun təsbit edilməsi önəmlidir. Qeyd edilən təcrübə bir çox postsovet və avropa ölkələrində mövcuddur. Elmi araşdırmalara görə bu təminat məşğulluq sahəsində müsbət tendensiyalara səbəb olması ilə yanaşı ailədə böyüyən uşaqların əqli, fiziki və mənəvi inkişafında da böyük əhəmiyyətə malikdir.

Qeyd edilən məsələ ilə bağlı AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Əmək Məcəlləsinin 125-ci maddəsində dəyişiklik edilməsi və uşağının anadan olmasına görə kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuş gününə təsadüf edən ərəfədə 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsinə dair təklifi özündə əks etdirən Qanun layihəsi AR Nazirlər Kabinetinə təqdim edilmişdir. Təklif olunan müddət arzuolunan həddə olmasa da, 156 saylı Konvensiyanın implementasiyası istiqamətində ilk cəhdlərdən biri olaraq layihə AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dəsətəklənmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı məsələlərdən biri də qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin (700-ə yaxın iş yeri) siyahısına yenidən baxılması və bu iş yerlərinin sayının azaldılması məsələsidir.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin tövsiyələrinə uyğun olaraq, qadınların məşğulluq imkanlarının genişləndirilməsi və qadınların daha yüksək əmək haqqı ödənilən sahələrdə çalışmasının təmin edilməsi məqsədilə AR Əmək Məcəlləsində, eləcə də Məcəllədən irəli gələn normativ hüquqi aktlarda dəyişikliklər edilməsi ilə bağlı layihələr hazırlanmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısının təsdiq edilməsi haqqında" 1999-cu il 20 oktyabr tarixli 170 nömrəli qərarının qüvvədən düşməsi və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadın əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı iş yerlərinin Siyahısı"nın və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadın əməyinin tətbiqi qadağan olunan iş yerlərinin müəyyən edilməsi üçün zərərli maddələrin və istehsalat mühiti amillərinin Siyahısı"nın təsdiq edilməsi nəzərdə tutulur.

Beləliklə, mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yeri azaldılaraq 204 müəyyən ediləcək, eyni zamanda qadağan edilən bu peşə (vəzifə) və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara şamil ediləcəkdir. Nəticədə respublikada əmək münasibətlərinin və məşğulluq imkanlarının gender bərabərliyi prinsipləri əsasında qurulmasında, kişi və qadınlara bərabər rəftar və bərabər məşğulluq imkanlarının yaradılmasında əsaslı dönüş yaranacaq.

Bu məqsədlə hazırlanmış "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi AR Milli Məclisinə təqdim edilmişdir.

Həmçinin Beynəlxalq Əmək Təşkilatının ekspertləri tərəfindən ölkəmiz üçün dolayı ayrı-seçkilik hesab edilən ölkə üzrə qadınlarla kişilərin orta aylıq əməkhaqqı səviyyələri arasındakı kəskin fərqliliyin (2018-ci ildə qadınlar 360,8 manat, kişilər 670,2 manat, 2019-cu ildə qadınlar 534,3 manat, kişilər 846,5 manat, 2020-ci ildə qadınlar 525,6 manat, kişilər 830,2 manat) aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində və bu Məcəllədən irəli gələn normativ hüquqi aktlarda müvafiq dəyişikliklər nəzərədə tutulmuşdur.

Bu sahədə dünya üzrə qadınlar və kişilər arasındakı fərq cədvəldə (#2) öz əksini tapıb.

**- Gender bərabərliyinin təmin edilməsinə ciddi əngəl yaradan amillərdən biri olan məişət zorakılığının qarşısının alınması istiqamətində AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən normativ hüquqi akt layihələri aidiyyəti qurumlarla razılaşdırılaraq AR Nazirlər Kabinetinə təqdim edilmişdir.**

"Məişət zorakılığının qarşısının alınması haqqında" AR Qanununun qəbul edildiyi vaxdan etibarən onun tətbiqi ilə bağlı formalaşmış təcrübədən irəli gələrək məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi istiqamətində movcud boşluqların aradan qaldırılması məqsədi ilə hazırlanmış təkliflər paketi əsasən aşağıdakı məsələləri əhatə edir:

- **qanunun şamil edildiyi subyektlər dairəsinin genişləndirilməsi, şəxslər dairəsinə ər və arvadın yaxın qohumlarının da əlavə olunması;**
- **qısamüddətli mühafizə orderinin verilməsi ilə bağlı mexanizmin dəqiqləşdirilməsi**
- **məişət zorakılığından zərər çəkmiş şəxslərin pulsuz hüquqi yardımla təmin edilməsi mexanizminin müəyyən edilməsi**
- **məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması**
- **məişət zorakılığına görə cinayət məsuliyyətinin müəyyən edilməsi və s.**

***Siyasi sənədlərin (milli fəaliyyət planları, proqramlar, tədbirlər planı, ) qəbul edilməsi***

***#2 Gender bölgüsünə görə gəlir boşluğu***

*Aşağı maaşlı işlərdə daha çox qadın, yüksək maaşlı işlərdə daha çox kişi.*




*Qlobal orta illik gəlir*

Əvvəlki illərdə təsdiq edilmiş siyasi sənədlər hesabat dövründə dövlətin gender bərabərliyi siyasətinin gücləndirilməsi istiqamətində mühüm alətlər olmuşdur. Bu sənədlərdə müvafiq sahələrdə qanunveiriciliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi, əhalinin maarifləndirilməsi, mütəxəssis hazırlığı, həssas qruplardan olan şəxslərin müdafiəsinin gücləndirilməsi istiqamətində nəzərdə tutulan çoxşaxəli tədbirlər gender bərabərliyinin təmin edilməsi sahəsində ciddi problemlərin həllinə dövlət tərəfindən konstruktiv yanaşmanı nümayiş etdirir. Bunlar:

- **"Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı";**
- **"Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı";**
- **"Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"**

Qeyd edilən siyasi sənədlər çərçivəsində il ərzində həyata keçirilmiş tədbirlər barədə müvafiq olaraq digər bölmələrdə məlumatlar əks olunmuşdur.

Layihəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2022-2025-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi Qanunun həyata keçirilməsinə, xüsusilə də ictimai həyatın bütün sahələrində gender bərabərliyinin təşviqi və bərabər imkanların yaradılması baxımından mühüm töhfələr verə bilər. Layihə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na uyğun olaraq yenidən işlənilmiş və bütün aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmışdır.

## İnstitusional mexanizmlər

Gender siyasətini təmin etmək üçün formalaşdırılmış institusional mexanizmlərin gücləndirilməsi istiqamətində 2021-ci ildə bir sıra fəaliyyətlər həyata keçirilmişdir.

## Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin (UADM) fəaliyyəti çərçivəsində həyata keçirilən tədbirlər

Gender mexanizmlərinin əlçatanlığını təmin etmək üçün regionlarda UADM təmsilçiliyi daim diqqət mərkəzində olmuşdur. 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın iştirakı ilə İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin açılışı baş tutmuşdur.

Ölkə rəhbərliyinin bu cür dəstəyi UADM-nin fəaliyyətinin daha da genişlənməsinə və gender bərabərliyinin təminatı mexanizmləri şəbəkəsinin möhkəmlənməsinə fokuslanmış addımdır.

11 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti çərçivəsində müraciətlər qəbul olunur və təhlil edilir, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, habelə beynəlxalq tərəfdaşlar və qeyri-hökumət təşkilatları, biznes nümayəndələri və sahibkarlarla birgə gender bərabərliyi, ailə və məişət zorakılığı ilə bağlı mövzularda maarifləndirmə işləri aparılır, ailələrə səfərlər edilir, ilkin psixososial qiymətləndirmə işləri aparılır, psixoloji dəstək göstərilir, müxtəlif layihələr icra olunur. Hesabat ili ərzində Azərbaycanın müxtəlif regionlarında və rayonlarında çoxsaylı aksiyalar, təlimlər, kurslar təşkil edilmişdir.

UADM-lər tərəfindən Dövlət Proqramlarının və Milli Fəaliyyət Planlarının icrası məqsədilə qadınların məşğulluğunun artırılması və qadın sahibkarlığının inkişafı sahəsində təlimlər keçirilmiş, peşə kursları təşkil olunmuşdur. Ümumilikdə, bu tədbirlərə 852 qadın cəlb edilmişdir.

Qaradağ və Sabunçu rayon İcra Hakimiyyətləri və Şüvəlan UADM ilə birgə "açıq qapı" günləri aksiyaları keçirilmişdir. Rayonlarda 3 gün ərzində 186 ailə hüquqi, psixoloji və sosial yardımdan faydalanmışdır. Açıq hökümətin təşviqi məqsədilə "açıq qapı" günləri aksiyaları çərçivəsində ümumilikdə 23 rayonda 904 ailə UADM-lər tərəfindən psixoloji və hüquqi xidmətlərdən faydalanmışdır.

Tədbirlər zamanı UADM-lər tərəfindən, o cümlədən sağlamlıq imkanları məhdud vətəndaşların və 44 günlük Vətən müharibəsi qazilərinin ailələrinə də səfər edilərək ehtiyacları qiymətləndirilmişdir. 308 şəhid, 393 qazi ailəsində ilkin psixososial qiymətləndirmə aparılmış, psixoloji dəstək göstərilmiş, ərzaq yardımı və digər zəruri gigiyenik vasitələr verilmişdir.

Sosial inkluzivlik prinsiplərinə riayət edərək UADM-lər tərəfindən təşkil edilmiş **"Ailədən-ailəyə" aksiyaları** çərçivəsində 116 ailə tərəfindən 429 aztəminatlı ailəyə yardım edilmişdir. Mərkəzlərin fəaliyyəti nəticəsində qadınları maraqlandıran məsələlər dinlənilmiş, problemin həlli ilə bağlı müxtəlif xidmətlər göstərilmiş, maarifləndirmə işləri aparılmışdır.

Beləliklə, UADM-lər qadınları narahat edən məsələlər ilə əlaqədar müraciət etmələri üçün əlavə və effektiv kommunikasiya vasitəsidir. UADM-lər şəbəkəsinin köməyi ilə 2021-ci il ərzində ümumilikdə 2903 vətəndaş tərəfindən, o cümlədən məişət zorakılığı ilə əlaqədar 49 olmaqla, 3093 müraciət daxil olmuşdur. 3 erkən nikah, 5 uşağın təhsildən yayınması faktı aşkarlanaraq, qarşısı alınmışdır. Maddi yardım, geyim və ərzaq yardımı ilə 593 müraciətdən 327-si əlaqələndirmə nəticəsində təmin edilmişdir.

Ümumilikdə, UADM-lərin əməkdaşları tərəfindən ötən il ərzində 1253 ailəyə səfərlər edilmiş, 92 adda on mindən artıq maarifləndirici material çap olunaraq əhali arasında paylanılmış, 577 maarifləndirici tədbir, mütəxəssislər tərəfindən 60 təlim təşkil edilmişdir. Ümumilikdə UADM-lərin fəaliyyəti 30 minə yaxın insanı əhatə etmişdir.

## Qadın Resurs Mərkəzlərinin fəaliyyəti

Beynəlxalq təşkilatlarla birgə layihə çərçivəsində yaradılan bu mərkəzlərin əsas məqsədi qadınların sahibkarlıq bacarıqlarını inkişaf etdirmək və onların əmək bazarında rəqabətliliyini artırmaq, habelə ucqar ərazilərdə qarşılaşdıqları sosial və iqtisadi çətinliklərin aradan qaldırılmasına dəstək olmaqdır.

2021-ci ildə yerli icra hakimiyyətləri və xarici tərəfdaşların dəstəyi ilə (Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı – GİZ) Göyçay və Tovuz rayonlarında Qadın Resurs Mərkəzlərinin açılışı həyata keçirilmişdir. Eyni zamanda **"Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" layihəsi** çərçivəsində Füzuli, Tərtər və Ağcabədi rayonlarında İcma Resurs Mərkəzləri fəaliyyətə başlamışdır.

Tovuzda "Sağlam Həyat Naminə" İctimai Birliyinin və BP şirkətinin nümayəndələrinin iştirakı ilə qadınlara biznes fəaliyyətinə başlamaları və onu genişləndirmələri üçün maddi dəstək göstərmiş, biznes planına uyğun olaraq avadanlıqlarla təmin olunmuşdur.

**"Sahibkarlığa və məşğulluğa iqtisadi dəstək" layihəsinin** "Gender əsaslı zorakılıq" komponenti çərçivəsində Qadın Resurs Mərkəzlərində hüquqşunas və psixoloq xidməti fəaliyyət göstərir. Üç il müddətində layihə çərçivəsində müraciət edən hər bir şəxs bu xidmətdən ödənişsiz yararlana biləcək. Layihənin "Gender əsaslı zorakılıq" komponenti çərçivəsində 721 nəfər qeydiyyatdan keçmişdir. Qeydiyyatdan keçən iştirakçılara psixoloji dəstək, hüquqi yardım, peşə təlimi və özünüməşğulluq ilə əlaqədar dəstək və maarifləndirmə seminarları keçirilmişdir.

2021-ci il ərzində İcma Resurs Mərkəzlərində qrafik dizayn, veb proqramlaşdırma və kontent menecer sahələri üzrə innovativ peşə kursları keçirilmişdir. Komitə tərəfindən gender məsələləri və qadınların sahibkarlıq fəaliyyəti ilə bağlı müxtəlif mövzularda təlim və seminarlar keçirilmişdir.

Cədvəldə (#3) dünya üzrə qadınların İKT sahəsinə olan maraqları əks edilmişdir.

## Gender məsələləri üzrə məsul şəxslər

Gender bərabərliyinin təminatı istiqamətində davamlı həyata keçirilən effektiv və vacib institusional addım gender məsələləri üzrə məsul şəxslər şəbəkəsinin genişləndirilməsi və fəaliyyətlərinin təkmilləşdirilməsidir. Mərkəzi icra hakimiyyəti orqanları və

**#3 Sahələr üzrə İKT və süni intellekt istiqamətində gender boşluğu**




qeyri-hökumət təşkilatlarında əlaqələndiricilərin kommunikasiyası gender bərabərliyi sahəsində maarifləndirmə şəbəkələrini genişləndirmək imkanını yaratmışdır.

## Bələdiyyələrdə Gender Komissiyaları

Qadınların seçkili orqanlarda təmsilçiliyini təmin etmək və iştirakına dəstək vermək məqsədi ilə 2021-ci ildə də bələdiyyələrdə yaradılmış Gender Komissiyalarının nümayəndələri üçün bələdiyyələrin hüquq və vəzifələri, gender bərabərliyi, liderlik mövzularında təlimlərə start verilmişdir. İlk təlimlər Bakı və Abşeron iqtisadi rayonu üzrə seçilmiş bələdiyyələrdə yaradılmış Gender Komissiyalarının nümayəndələri üçün keçirilmişdir.

Təlimlərdə bələdiyyələrin hüquq və vəzifələri, gender bərabərliyinin təmin olunması istiqamətində mövcud problemlər, gender bərabərliyinin təminatları ilə bağlı Gender Komissiyalarının üzərinə düşən vəzifələr barədə məlumatlar verilmişdir.

## Media, televiziya və yeni yaradılmış İKT resursları

2021-ci il ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən gender bərabərliyinin təminatı istiqamətində görülmüş işlər haqqında məlumat mövcud və yeni yaradılan media və İKT resurslarında da əksini tapmışdır.

Dövlət Komitəsinin "Facebook" səhifəsi 2 aprel 2021-ci il tarixində "Facebook" tərəfindən rəsmi olaraq mavi nişan vasitəsi ilə təsdiqlənmişdir. Bu, gender bərabərliyi gündəliyinin İKT istiqamətində və virtual platformalarda müzakirəsi və maarif–ləndirmə işlərinin daha da səmərəli keçirilməsi üçün atılmış bir addımdır. Buradakı əsas mesajlar gender bərabərliyinin pozulması və stereotiplərin aradan qaldırılmasına yönəlmişdir.

Bütün televiziya və radio kanalları, həmçinin informasiya portalları ilə mütəmadi və dayanıqlı əməkdaşlıq çərçivəsində də gender bərabərliyinin təminatları haqqında geniş maarifləndirmə işləri aparılmışdır.

BMT-nin Uşaq Fondunun dəstəyi ilə Komitə tərəfindən "**Validenyn nəzarəti və internet təhlükəsizliyi**" - www.kidsafe.az proqramının təkmilləşdirilməsi və fəaliyyətinin yenidən bərpası təmin edilmişdir. Proqramın tərkibində 1 milyondan çox beynəlxalq axtarış sistemləri və resurslarında təsdiqlənmiş pornoqrafik, suisid, zərərli vərdişlər, insan alveri, terrorizm, spam, fishing və s. olmaqla filtirasiya kontenti mövcuddur. Bu alət vasitəsi ilə eyni zamanda gender bərabərliyinin təminatı üçün faydalanmaq mümkün olmuşdur. Geniş istifadəçi auditoriyası bu kontentin daha da əlçatan olmasına köməklik göstərmişdir.

Dövlət Komitəsinin veb saytnının "Onlayn müraciət" hissəsinə gələn vətəndaş müraciətlərinin toplanılması və təhlili gender bərabərliyi gündəliyinə daha dəqiq fokuslanmağa imkan yaratmışdır.

20 iyun 2021-ci il tarixindən etibarən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə birgə Gender bərabərliyi üzrə məsul şəxslər üçün "**Gender Azerbaijan**" elektron portalının yaradılması istiqamətində işlər davam etdirilmişdir. Portalda "İNTRANET" şəbəkəsi vasitəsilə dövlət qurumları üzrə genderə məsul şəxslərin koordinasiyasının təşkil edilməsi və onların gender bərabərliyi sahəsində məlumatlandırılması əks olunub.

"Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planın" a əsasən Komitənin saytında "Məişət zorakılığı" adlı xüsusi bölmə yaradılmış və "860" Qaynar xətti əlavə edilmişdir.

Gender bərabərliyinin təminatları istiqamətində Dövlət Komitəsinin institusional yaddaşını təkmilləşdirmək məqsədi ilə 2021-ci il üzrə foto və videolarının arxivi yaradılmışdır.

## 1.2. Gender bərabərliyi mədəniyyətinin təbliği

**"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 5.0.4-cü maddəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq gender bərabərliyi mədəniyyətinin təbliği göstərilir.**

Gender bərabərliyinin təmin olunması sahəsində dövlət tərəfindən qəbul edilən qanunvericilik aktlarının həyata keçirilməsi çərçivəsində müxtəlif dövlət qurumları və AQUPDK tərəfindən layihələr və tədbirlər planları hazırlanmış, seminarlar, təlimlər keçirilmiş, maarifləndirmə işləri aparılmışdır. Bu marafonda Mərkəzi İcra hakmiyyəti orqanları fəal iştirak edirlər.

Gender bərabərliyi barədə gənclərin mütəmadi olaraq məlumatlandırılmasının təmin edilməsi məqsədilə 2021-ci il ərzində Azərbaycan Respublikası **Gənclər və İdman Nazirliyinin** nəzdində fəaliyyət göstərən "Gənclər evi" sosial xidmət müəssisələrinin dəstəyi ilə **"Qadınların cəmiyyətdə rolu"**, **"Gender bərabərliyi"**, **"Gender stereotipləri"**, **"Təhsilli qadın, təhsilli ailə, təhsilli cəmiyyət"** adlı mövzularda təlim və seminarlar keçirilmişdir.

**Təhsil Nazirliyinin** dəstəyi ilə **"İşə düzəlməkdə çətinlik çəkən şəxslər üçün faydalı məsləhətlər"** mövzusunda treninqlər keçirilmişdir.

Təhsil müəssisələrində tələbələr üçün insan hüquqları və gender bərabərliyi haqqında məlumatlılıq səviyyəsinin artırılması məqsədilə mütəmadi olaraq seminarlar təşkil edilir.

**"Qadın və kişilərin hüquq bərabərliyi"**, **"Qadınların cəmiyyətdə rolu"**, **"Qadın ailədə və cəmiyyətdə"**, **"İnsan hüquq və azadlıqları"**, **"Ailədə ər və arvadın vəzifələri"**, **"Gender bərabərliyi"**, **"Gənclərin insan hüquqları və azadlıqları, gender bərabərliyi haqqında məlumatlılıq səviyyəsinin artırılması"** və **"Hər bir insan (vətəndaş) öz hüququnu bilməlidir"** mövzularında onlayn və əyani tədbirlər keçirilmişdir. Bununla yanaşı **"GəLSƏN"** layihəsi çərçivəsində tələbələrlə görüşlər təşkil olunmuşdur.

Cədvəldən (#4) göründüyü kimi, dünyada müxtəlif sahələr üzrə qadınlar onlayn təlimlərə qatılaraq gender paritetinə doğru irəliləyirlər.

Təhsil sahəsində ixtisaslaşan **Education HUB "İnkişaf üçün incəsənət" proqramı**

***#4 Onlayn təlimlərə qatılanların gender fərqliliyi***




çərçivəsində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində tələbələr üçün erkən nikahlara həsr olunmuş **"Oxuyuram, əl çəkin!"** adlı təşəbbüs reallaşdırılmışdır. Təşəbbüs zamanı tələbələr üçün **"Erkən nikahın psixoloji təsirləri"**, **"Erkən nikah-insan haqlarının pozulması"** mövzusunda təlimlər təşkil edilmişdir.

**"Mənim peşəm" layihəsi** çərçivəsində 3 ay müddətində Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi tərəfindən peşəyönümü sessiyaları təşkil edilmişdir. Turizm-xidmət, dizayn, İKT istiqamətləri üzrə təşkil edilmiş məlumatlandırma sessiyalarında məşğulluq, əmək bazarı və düzgün ixtisas seçimi barədə məlumat verilmişdir.

Qadınlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması, bu sahədə bilik və bacarıqların artırılması, cəlb olunan qadınların əhatə dairəsinin genişləndirilməsi məqsədilə **Dövlət Məşğulluq Agentliyi** tərəfindən 2021-ci il üzrə özünüməşğulluq proqramı ilə yanaşı gender bərabərliyinin təminatı ilə əlaqəli digər layihələr də həyata keçirilmişdir.

Dövlət Məşğulluq Agentliyi və yerli icra hakimiyyəti tərəfindən birgə həyata keçirilən **"Şamaxı-sosial müəssisə"** **layihəsinin** məqsədi yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı qadınların sosial müəssisə yaradılmaqla məşğulluq imkanlarını genişləndirməkdən ibarətdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Əhali Fondu tərəfindən 2021-ci ildən birgə icra olunan **"Əlilliyi olan qadınların və Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi** çərçivəsində 4 saylı Bakı DOST Mərkəzində yaradılan İnklüziv İncəsənət Məktəbində seminar və maarifləndirici sessiya keçirilmişdir.

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM)** tərəfindən əhali arasında gender bərabərliyi və qadın hüquqlarının təbliği, gender ayrı-seçkiliyinin qarşısının alınması ilə bağlı maarifləndirmə işinin aparılması məqsədilə çap materialları (metodik vəsaitlər, bukletlər, vərəqələr, plakatlar) hazırlanmış, əhali arasında paylanılmışdır. Həmin maarifləndirici materiallar əsasında təlim, seminar və maarifləndirici görüşlər keçirilmişdir. Bu istiqamətdə onlayn, elektron resurslar yaradılmışdır.

Aidiyyəti dövlət orqanları və təşkilatların əməkdaşları üçün gender əsaslı zorakılıqdan zərər çəkmiş şəxslərin aşkar edilməsi üçün metodik təlimatlar hazırlanmış və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) mütəxəssisləri tərəfindən müvafiq təlimlər keçirilmişdir.

İSİM-in facebook və instagram səhifələrində mütəmadi olaraq məişət zorakılığına qarşı, selektiv abortların mənfi nəticələri və fəsadları barədə maarifləndirici materiallar yerləşdirilmiş, bu istiqamətdə geniş təbliğat aparılmışdır.

**QHT Dövlət Dəstəyi Agentliyi** tərəfindən Xaçmaz, Xızı, Siyəzən rayonlarında və Sumqayıt şəhərində ailə dəyərlərinin təbliği, erkən nikahın reproduktiv sağlamlığa ziyanı mövzusunda tədbirlər təşkil edilmişdir. **"Qadın hüquqlarının təbliği və müdafiəsi ilə bağlı fəaliyyətin dəstəklənməsi" layihəsi** çərçivəsində Bakı şəhərində **"Qadın hüquqları və müdafiə mexanizmləri"** adlı görüş keçirilmişdir və iştirakçılara bu istiqamətdə maarifləndirmə materialları paylanılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən 2021-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün "Dövlət qulluğunda gender bərabərliyi: mövcud vəziyyət və çağırışlar" mövzusunda təlim keçirilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Gənclərin İnkişafı və Karyera Mərkəzinin Azərbaycanın müxtəlif rayonlarındakı nümayəndəlikləri ilə birgə **"Bərabər hüquqlarımız"** adlı layihə hazırlamışdır. Layihə çərçivəsində "Gender və insan hüquqları" mövzusunda təlim həyata keçirilmişdir. Təlimdə gender bərabərliyi, bu sahədə mövcud yerli və beynəlxalq qanunvericilik haqqında məlumat verilmişdir. Gənclərin İnkişafı və Karyera Mərkəzinin Qazax, Şəmkir, Tovuz, Şamaxı nümayəndəliklərinin əməkdaşları, Bakı Dövlət Universitetinin Qazax filialının və Qazax Dövlət Sosial-İqtisadi Kollecinin tələbələri iştirak etmişdir.

**Mərkəzi icra hakimiyyəti orqanları**, ali təhsil müəssisələri və beynəlxalq tərəfdaşların iştirakı ilə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 15 illiyinə həsr olunmuş **"Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum"** adlı vəsaitin təqdimatı olmuş, gender bərabərliyi üzrə məsul şəxslər üçün **"Gender Azerbaijan" elektron portalı** yaradılmış, o cümlədən **"Ailə və bərabər inkişaf"** jurnalı hazırlanmışdır.

Kurikulum və digər hazırlanmış poliqrafik materiallar universitetlərin, kitabxanaların və mərkəzi icra hakimiyyəti orqanlarının istifadəsinə təqdim edilmişdir.

Müxtəlif rayonlarda yeniyetmə və gənclər üçün "Milli-mənəvi, ailə dəyərlərinin təbliği, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi" və "Doğulacaq uşağın cinsinin seçilməsi ilə mübarizə" mövzularında maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Dövlət Komitəsi Mərkəzi icra hakimiyyəti orqanları, ali təhsil müəssisələrinin nümayəndələri üçün **"Ümumdünya ana südü ilə qidalandırma həftəsi"** çərçivəsində maarifləndirici tədbirlər, **"Dövlət qulluğunda gender bərabərliyi: mövcud vəziyyət və çağırışlar"** mövzusunda təlimlər keçirilmişdir.

Komitə Avropa İttifaqı və Avropa Şurasının əməkdaşlığı ilə birgə **"Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi** çərçivəsində **"Gender stereotipləri, qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair maarifləndirmə"** mövzusunda regionlarda seminarlar keçirmişdir.

## 1.3. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması

Qanunda (2.0.4-cü maddə) cinsi mənsubiyyətə görə ayrı-seçkilik–seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində cinsindən və digər amillərdən asılı olmayaraq ictimai və şəxsi həyatda fundamental insan hüquqları tanınır, cinsi mənsubiyyətə görə ayrı-seçkilik qadağan edilir. Bu əməlin törədilməsinə görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

İl ərzində Dövlət Komitəsinə daxil olmuş vətəndaş müraciətlərinin təhlili ilkin olaraq belə bir təəssürat yaradır ki, ölkə ərazisində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin ən geniş yayılmış forması məişət zorakılığıdır.

Lakin məlumdur ki, cinsi mənsubiyyətə görə ayrı-seçkilik halları bir çox halarda gizli qalır, onların aşkar edilməsində və cəzalandırılmasında müəyyən çətinliklər olur. Belə ki, əksər hallarda mənfi gender steriotipləri kişi və qadınların düşüncə və davranışına təsir etməklə ayrı-seçkilik hallarının onlar tərəfindən məhz hüquq pozuntusu kimi qəbul edilməsinə əngəl yaradır və nəticədə müdafiə üçün müvafiq instansiyalara müraciətlər də edilmir.

Bu səbəbdən ölkə qanunvericiliyindən və beynəlxalq normalardan irəli gələrək ayrı-seçkiliyin digər təzahürləri kimi tanınan seksual qısnama, selektiv abortlar, qız uşaqlarının erkən yaşda evliliyi, qadınların fahişəliyə cəlb edilməsi, əmlakın idarə olunmasında, vərəsəlikdə, ailə öhdəliklərinin bölüşdürülməsində bərabərsizlik araşdırma və təhlillərin aparılmasını zəruri edir.

Qanunun 17-ci maddəsinə əsasən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalan şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada zərər ödənilir. Hüquq müdafiəçilərinin bu müddəanın tətbiqində fəallıq göstərmələri və məhkəmə presedentlərinin formalaşması insan hüquqlarının təmini baxımından önəmlidir. Bu istiqamətdə Dövlət Komitəsi Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə əməkdaşlıq çərçivəsində vəkillərlə görüşlər keçirmişdir.

Həmçinin Dövlət Komitəsi tərəfindən **"Gender bərabərliyinin təmin edilməsinə dair qanunvericilik toplusu"** kitapçası nəşr edilmiş, dövlət orqanlarına və qeyri-hökumət təşkilatlarına paylanılmışdır. Kitabçanın elektron versiyası Komitənin veb saytına yerləşdirilmişdir.

Ədliyyə Akademiyasında hakimlər, prokurorlar, vəkillər və hüquq-mühafizə orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuş tədris proqramlarına cinsi mənsubiyyətə görə ayrı-seçkilik və qadın hüquqları ilə bağlı mövzular daxil edilmişdir.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2021-ci ildə 6 məhkəmə qətnaməsində Qanuna istinad edilsə də, bu işlər 17-ci maddəyə əsasən cinsi-mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalan şəxslərə zərər ödənilməsi ilə əlaqədar olmamışdır.

Qanunda məhkəmə müdafiəsi ilə bağlı təminatın olmasına baxmayaraq, bu sahədə hələ də hüquq tətbiqetmə təcrübəsinin formalaşmaması ictimai münasibətlərdə ayrı-seçkiliyin yol verilməzliyi prinsipinin bir çox hallarda formal anlayış olaraq dərk edildiyini göstərir.

Sahəvi qanunvericilik aktlarında bərabərlik, ayrı-seçkiliyin yol verilməzliyi kimi prinsiplərin təsbit edilməsi real bərabərliyin bərqərar olunmasında yetərli deyildir. Qadın və kişilərin bərabər şəkildə hüquqi və faktiki olaraq insan hüquq və azadlıqlarından faydalanmasına nail olmaq üçün cinsi ayrı-seçkiliyin bütün formalarının aşkar edilməsi və aradan qaldırılması önəmlidir. Bu məqsədlə müxtəlif sahələrdə həyata keçirilən siyasətlərin, o cümlədən qanunvericiliyin gender ekspertizasının aparılması və qanunların icra vəziyyətinin gender bərabərlliyi baxımından monitorinqi əhəmiyyətlidir.

Qanunvericilikdə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin təzahürlərinin, tərkib elementlərinin və müdafiə mexanizmlərinin daha dəqiq və aydın təsbit edilməsi mübahisələrin və şikayələrin həllini asanlaşdıra bilər.

*Qanunda "cinsi mənsubiyyətə görə ayrı-seçkilik" anlayışının əhatə dairəsi geniş verildiyindən beynəlxalq sənədlərdən irəli gələrək gender əsaslı zorakılıq halları da həmin anlayışın təsir dairəsinə düşür. Qanunda gender əsaslı zorakılıqla bağlı xüsusi maddələr olmasa da ölkəmizdə aktual olan gender əsaslı zorakılıq hallarının: məişət zorakılığı, qız uşaqlarının erkən evliliyi, selektiv abortların qarşısının alınması istiqamətində həyata keçirilmiş tədbirlərin Məlumata daxil edilməsi önəmlidir.*

## Məişət zorakılığı ilə mübarizə sahəsində tədbirlər

Hesabat ilində dövlət orqanları tərəfindən məişət zorakılığının qarşısının alınması istiqamətində həyata keçirilmiş tədbirlər "Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nına əsasən müəyyən edilmişdir.

AR Prezidentinin müvafiq sərəncamına əsasən Milli Fəaliyyət Planının icra vəziyyətinə dair icraçı orqanlardan toplanılmış məlumatlar əsasında Dövlət Komitəsi tərəfindən illik hesabat AR Prezidentinə təqdim edilmişdir.

"Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində 2021-ci ildə həyata keçirilmiş ən mühüm tədbirlər aşağıdakılardır:

- **Məişət zorakılığının qarşısının alınması haqqında "Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun Layihəsi, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində" Azərbaycan Respublikasının qanun layihələri və digər normativ akt layihələri hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırılmış və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq AR Nazirlər Kabinetinə təqdim edilmişdir.**
- **Məişət zorakılığının qarşısının alınması sahəsində mövcud hüquqi və institusional mexanizimlərin əhali arasında təşviqinin gücləndirilməsi və zərərçəkmiş şəxslərin vaxtında aşkar edilməsi ilə bağlı Bakı şəhərinin 12 rayon bələdiyyəsində yaradılmış "Gender məsələləri üzrə Komissiya"ların rəhbərlərinin iştirakı ilə Dövlət Komitəsi tərəfindən tədbir həyata keçirilmişdir .**
- **Dövlət Komitəsi BMT-nin Əhali Fondu ilə əməkdaşlıq çərçivəsində 25 noyabr- 10 dekabr tarixlərində "25 noyabr-Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü"nə həsr edilmiş "16 günlük fəallıq" kampaniyası çərçivəsində çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında ən çox ictimaiyyətin diqqətini cəlb edən "Neftçi"və Səbail" FC futbol klublarının qadınlara və qızlara qarşı zorakılıqla mübarizəyə həsr olunmuş oyununda futbolçuların zorakılıqla mübarizəni simvolizə edən narıncı rəngli formada meydana çıxmaları olmuşdur;**
- **İl ərzində təhsil müəssələrinin tələbələrinin mövzu ilə bağlı maarifləndirilməsinə daha çox önəm verilmişdir. BDU-nun hüquq fakültəsinin, Mədəniyyət və İncəsənət Universitetinin, Milli Aviasiya Akademiyasının tələbələri üçün mühazirə və seminarlar təşkil edilmişdir;**
- **Dövlət Komitəsi tərəfindən Avropa İttifaqının maliyyə dəstəyi, Litva və Avstriyadan olan müvafiq təşkilatların tərəfdaşlığı ilə "Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi" adlı Tvinninq layihəsinin icrası davam etdirilmişdir. Layihə çərçivəsində dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri də daxil olmaqla 696 nəfər təlimləndirilmiş və sertifikatlarla təmin edilmişdir, 7 təlim vəsaiti hazırlanmışdır.**

Həmçinin layihə çərçivəsində - Beynəlxalq „Dulut“ standartı əsasında məişət zorakılığı törədən şəxslər üçün reabilitasiya proqramı hazırlanmışdır. AQUPDK, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Probasiya Xidmətinin əməkdaşları üçün „Təlimçilərin təlimi“ təşkil olunmuşdur. "Məişət zorakılığı törətmiş şəxslərlə iş üçün müdaxilə proqramı" zorakılıq barədə təsəvvürləri genişləndirir və fərdlərə onların məişət mühitindəki zorakı davranışının formalarını, miqyasını və nəticələrini tənqidi şəkildə anlamağa kömək edir. Proqramın ölkəmizdə tətbiqi məqsədi ilə növbəti ildə sınaqdan keçirilməsi nəzərdə tutulmuşdur;

- **Sosial Xidmətlər Agentliyi tərəfindən məişət zorakılığından zərərçəkmiş şəxslərə qeyri-dövlət yardım**

mərkəzlərinin akkreditasiya üzrə Komissiya yaradılmışdır. Dövlət Komitəsi də həmin Komissiyada təmsil olunur. Komissiya tərəfindən məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım xidmətlərinin qiymətləndirmə meyarları hazırlanmış və iyun ayında 10 qeyri-dövlət yardım mərkəzində monitorinqlər aparılmış və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir. Qiymətləndirmənin nəticəsi olaraq iki yardım mərkəzinin akkreditasiyası ləğv edilmişdir. Hazırda məişət zorakılığından zərər çəkmiş şəxslər üçün 8 akkreditasiya olunmuş qeyri-dövlət yardım mərkəzləri fəaliyyət göstərir;

- "Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanları: mövcud vəziyyət və onun təkmilləşdirilməsi istiqamərləri" mövzusunda araşdırma aparılmışdır;
- "Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair" Hesabat hazırlanmışdır.
- Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin "Həssas əhali qruplarından olan şəxslər üçün sığınacaq və sosial reabilitasiya müəssisəsi"nin "Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzi şöbəsi"ndə 27 qadın və 14 kişiyə sosial xidmət göstərilmişdir.
- Avropa Şurasının dəstəyi ilə "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi həyata keçirilmişdir.

## Ölkədə məişət zorakılığı ilə bağlı vəziyyət

2021-ci ildə respublikada qadınlarla bağlı 5593, o cümlədən zorakılıqla müşayiət olunan 2197 cinayət qeydə alınmışdır. Pandemiya ilə bağlı əksər dünya ölkələrində qadınlara qarşı cinayətlərin sayının artması ölkəmizdə də müşahidə edilmiş, həmin əməllərin, o cümlədən zorakılıqla bağlı olanların sayı 2020-ci illə müqayisədə 6,3% çox olmuşdur.

Dünyadakı trend aşağıdakı statistikada (Cəd. #5) öz əksini tapıb. Qlobal artım 8,2% təşkil edir.

Qadınlara qarşı cinayətlərin 21, 4%-i (5593-dən 1196-sı) və yaxud hər beşincisi qısqanclıq və sair ailə-məişət münaqişələri səbəbindən baş vermişdir.

2021-ci il ərzində qeydə alınmış cinayət hadisələri üzrə məişət zorakılığı ilə bağlı 1536 zərərçəkmiş şəxs olmuşdur ki, onlardan 1205-i qadındır. Zərər çəkmiş şəxslərin 1150-i xəsarət almışdır. Məişət zorakılığı nəticəsində ölən qadınların sayı 46 olmuş

**#5 Qadınların intim partnyoru tərəfindən fiziki zorakılığa məruz qalmaları üzrə göstəricilər**



(2020-ci ildə 41 nəfər qadın), onlardan 44-ü qəsdən adam öldürmə (CM-in 120-122-ci maddələri nəzərdə tutulur) cinayətinin, 2-i isə qəsdən sağlamlığa ağır zərərvurma cinayətinin qurbanı olmuşdur.

Törədilmiş cinayət əməlləri arasında qəsdən sağlamlığa zərərvurmanın müxtəlif növlərinə, xuliqanlıq, əzab vermə, öldürülməklə və ya sağlamlığa zərərvurmaqla hədələmə, seksual xarakterli zorakılıq hərəkətlərinin törədilməsinə rast gəlinir. Ən çox rast gəlinən hal qəsdən sağlamlığa yüngül zərərvurmadır (295 hal). Ən az rast gəlinən isə seksual xarakterli zorakılıq hərəkətləridir (cəmi 1 hal). 2 ailədə isə ər-arvad qarşılıqlı olaraq bir-birinə xəsarət yetirmişdir.

Cinayətlərin ən çox qeydə alındığı ərazilər Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu olmuşdur.

Məişət zorakılığı ilə bağlı törədilmiş cinayətlərdə cinayətkar və qurbanın qohumluq əlaqələri də müxtəlifdir. Həm yaxın qohumlar, həm digər qohumlar, həm də peşə fəaliyyətini yerinə yetirən zaman zərər çəkən polis işçisinə rast gəlmək mümkündür. Lakin say nisbətinə baxdıqda ən çox ər tərəfindən öz həyat yoldaşının öldürülməsi diqqəti çəkir.

Qadınlara və uşaqlara qarşı törədilmiş ailə-məişət xarakterli zorakılıq əməllərinin qarşısının vaxtında alınması və operativ tədbirlərin görülməsində Daxili işlər Nazirliyinin "102" Xidməti-zəng mərkəzinin, elektron poçt ünvanının, Dövlət Komitəsinin 860 nömrəli və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 116, 123 nömrəli qaynar xətlərinin mühüm rolu olmuşdur.

**Ailə münaqişəsi zəmnində daxil olmuş məlumatlar üzrə görülən operativ cavab tədbirləri ilə 10587 (on min beş yüz səksən yeddi) hüquqa zidd əməlin qarşısı alınmışdır.**

Ötən illə müqayisədə 2021-ci ildə məişət zorakılığından zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə verilmiş mühafizə orderlərinin sayı artmışdır. Belə ki, yerli icra hakimiyyəti orqanları tərəfindən 69 qısamüddətli (2020-ci ildə bu rəqəm 38 olmuşdur), məhkəmələr tərəfindən 4 uzunmüddətli (2020-ci ildə bu rəqəm 2 olmuşdur) mühafizə orderləri verilmişdir. Orderlərin icrasına nəzarət Ədliyyə Nazirliyinin İcra və Probasiya şöbələri tərəfindən həyata keçirilmişdir.

Məişət zorakılığından zərərçəkənlər üçün qeyri-dövlət yardım mərkəzlərinin sığınacaqlarında yerləşdirilmiş şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Komitə qurumlararası əlaqələndirməni həyata keçirmiş və onların müdafiəsinin təşkili məqsədilə aidiyyəti qurumlar qarşısında məsələ qaldırmışdır. **Dövlət Komitəsi tərəfindən 2021-ci ildə 364 məişət zorakılığından zərərçəkmiş şəxslə bağlı müraciətlərə baxılmışdır. 2019-cu ildə bu rəqəm 242 , 2020-ci ildə isə 179 olmuşdur.**

**"Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair" Hesabatdan çıxarışlar**

Araşdırmanın əsas məqsədi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə 2021-ci ilin ilk üç ayı ərzində ünvanlanmış müraciətlər əsasında məişət zorakılığının müxtəlif formalarının baş vermə səbəblərinin, məişət zorakılığının əsas fəsadlarının müəyyən edilməsi, məişət zorakılığı ilə mübarizədə mövcud hüquqi və institusional mexanizmlərin qiymətləndirilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlik mexanizmlərin təkmilləşdirilməsi istiqamətində təkliflərin verilməsidir.

Araşdırmanın nəticələri onu göstərir ki, məişət zorakılığına məruz qalanların böyük əksəriyyəti orta təhsilli şəxslərdir. Sorğuya cəlb olunmuş respondentlərin 78%-nin işsiz, 22%-nin məşğul olması onu göstərir ki, məişət zorakılığına daha çox işsiz şəxslər (xüsusilə işsiz qadınlar) məruz qalırlar. Bu, qadınların məşğulluğunun təmin edilməsi istiqamətində daha geniş proqramların həyata keçirilməsinə ehtiyac olduğunu göstərir.

Qurbanlara qarşı zorakılıq həm intim partnyorları, həm də intim partnyorları olmayan şəxslər tərəfindən törədilir. Zorakılıq törədənlərin 33%-i qurbanların əri, 16%-i keçmiş əri, 6%-i qanuni nikahda olmadan birgə yaşadığı şəxs, 4%-i anası, 4%-i atası, 10%-i qardaşı, 12%-i qaynanası, qalan 15%-i isə digər şəxslərdir (arvad, ögey ana, övladlığa götürən, baldız, bibi, dayı, bacı və s.).

Zorakılıq qurbanları daha çox məişət zəmnində fiziki və psixi zorakılığa məruz qalırlar. Sorğuya cəlb olunmuş respondentlərin 78%-i fiziki, 84%-i psixi zorakılığa məruz qaldığını bildirib. Ekspertlərin əksəriyyətinin qənaətinə görə, zorakılıq qurbanlarının çoxu seksual zorakılığa məruz qalmalarını açıqlamaqdan çəkin–diklərindən seksual zorakılıq qurbanlarının statistik göstəriciləri reallıqda olduğundan dəfələrlə aşağıdır. Eyni zamanda iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərə məruz qalanların da statistikası reallıqdan uzaqdır. Sorğuya cəlb edilmiş respondentlərin yalnız 33%-i iqtisadi, 11%-i isə seksual zorakılığa məruz qaldığını bildirib. Sorğuda iştirak edən respondentlərin 9%-i COVİD-19 pandemiyası dövründə zorakılıq hallarının artdlğını, 2%-i azaldığını, 89%-i isə fərq etmədiyini bildirib.

Araşdırmanın nəticələrinə görə mövcud stereotiplər (71%), kənar şəxslərin müda–xiləsi (62%), alkoqol və narkotik asılılığı (61%), xarakterdə zorakılığa meyllilik (56%), maddi problemlər (54%), qısqanclıq (45%) və uşaqlıqda yaşanan zorakılıq təcrübəsi (42%) məişət zorakılığında daha çox rol oynayan səbəblərdir.

"Məişət zorakılığına məruz qaldıqdan sonra kömək üçün müraciət etmisinizmi?" sualına cavab verən respondentlərin 31%-i ümumiy–yətlə müraciət etmədiklərini bildiriblər. Müraciət etməyənlərin 12%-i məlumatsız olmaları, 26%-i müraciət edəcəkləri təqdirdə daha ağır zorakılığa məruz qalacaqlarından qorxmaları, 32%-i el qınağından çəkindikləri, 30%-i ailənin dağıla biləcəyindən narahatlıq keçirdikləri səbəbindən müraciət etmədik–lərini bildiriblər.

Kömək üçün müraciət edənlərin 68%-i polis, prokurorluq və məhkəmə orqanlarına, 12%-i dostlara və qohumlara, 5%-i yardım mərkəzləri və sığınacaqlara, 3%-i ictimai təşkilatlara, 12%-i digər kömək vasitələrinə (ƏƏSMN-ə, psixoloqlara, ictimai təşkilatlara, televiziya proqramlarına) müraciət ediblər.

Dövlət orqanlarına kömək üçün müraciət etmiş respondentlərin 25%-i görülən tədbirlərdən tam razı qaldığını, 42%-i qismən razı qaldığını, 33%-i isə razı qalmadığını bildirib.

Məişət zorakılığına məruz qalmış şəxslərin 27%-i zorakılıq törətmiş şəxsə qarşı başlanmış inzibati və ya cinayət işinə barışıq əsasında xitam verildiyini, 22%-i bu halların bir neçə dəfə baş verdiyini bildirib. Zorakılıq törətmiş şəxslə barışmış qurbanların 29%-i belə halların bir daha baş verməyəcəyinə inandığından, 26%-i ailənin bütövlüyünü qorumağa çalışdığından, 23%-i barışığa məcbur edildiyindən, 22%-i digər səbəblərdən (el qınağından çəkindiyindən, qarşı tərəfin hədələrindən qorxduğundan, uşaqlarının gələcəyini düşündüyündən) zorakılıq törətmiş şəxslə barışdığını bildirib.

Məişət zorakılığına məruz qalanların hamısı onun müxtəlif formalarda özünü biruzə verən təsirləri ilə qarşılaşır. Məişət zorakılığının ayrı-ayrı fərdlərə (fərdlər qrupuna) münasibətdə fiziki və psixoloji təsirləri ilə yanaşı, bütövlükdə cəmiyyət üçün mənfi nəticələr doğuran sosial təsirləri də var. Araşdırma zamanı rəyi soruşulanların 74%-i müxtəlif bədən xəsarətləri (zədələr, yırtıq, çapıq, dişlərin tökülməsi, sınıq və s.) aldığını, 54%-i yuxusunun pozulduğunu və onda qorxu hissi yarandığını, 34%-i depressiyaya düşdüyünü və özünəinamsızlıq yarandığını, 33%-i özünə qapandığını, 26%-i özündə sosial fobiya hiss etdiyini, 22%-i intihara cəhd etdiyini bildirib. Məişət zorakılığına məruz qalanların 97%-i eyni zamanda bir neçə təsirə məruz qaldığını bildirib. Araşdırmanın məişət zorakılığının fəsadları ilə bağlı nəticələri qurbanların təxminən beşdə birinin (22%) intihara cəhd etdiyini göstərir. Bu, kifayət qədər böyük rəqəmdir və son dövrlərdə baş verən intihar hallarının artması ciddi narahatlıq doğurur.

## #6 Qurbanların məruz qaldığı zorakılıq formaları




## #7 Zorakılıq törədənlərin tərkibi




## #8 Müraciət edilmiş ünvanlar



## #9 Dövlət orqanlarına müraciətdən razılıq səviyyəsi




## #10 Zorakılıq törətmiş şəxslə barışmanın səbəbləri




## #11 Zorakılığın fiziki və psixoloji təsirləri



## Erkən nikahların qarşısının alınması ilə bağlı görülən tədbirlər

Erkən nikahların qarşısının alınması istiqamətində 13 sayda dövlət orqanları (qurumları) öz fəaliyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş **“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticilərinə dair maarifləndirmə Qaydası”** nda müəyyən edilmiş vəzifələrinə uyğun həyata keçirmişdirlər.

Qaydanın tələblərinə əsasən Dövlət Komitəsi ölkə üzrə qeyd edilən istiqamətdə görülmüş işlərə dair illik məlumatı AR Nazirlər Kabinetinə təqdim edir.

Hesabatda erkən nikahların qarşısının alınması istiqamətində ölkə ərazisində gənclərin, valideynlərin, müxtəlif sahələrin mütəxəssislərinin maarifləndirilməsi və məlumatlandırılması üzrə həyata keçirilmiş çoxsaylı tədbirlər ilə yanaşı aşağıdakı tədbirlər əks olunmuşdur:

- **Dövlət Komitəsi tərəfindən ölkədə erkən nikahlarla bağlı mövcud vəziyyəti, onların səbəbləri və nəticələrini öyrənmək məqsədilə “Müasir Azərbaycanda erkən nikahlar: sosioloji təhlil” analitik hesabatı hazırlanmışdır. Erkən nikahların iştirakçıları və onların valideynləri ilə dərinləşmiş müsahibələr keçirilmişdir;**
- **“Həyat bilgisi”, “Biologiya” dərslikləri ilə yanaşı ailə dəyərləri, reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzuları 3-cü və 4-cü sinif Azərbaycan dili dərsliklərinə daxil edilmişdir;**
- **Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun mamalıq bölməsi tərəfindən “Hamiləlik dövründə müxtəlif mamalıq ağırlaşmalarının profilaktikasının optimallaşdırılması və proqnozu” mövzusunda tədqiqat işi aparılmışdır. Tədqiqatda qeydə alınan 220 hamiləlikdən 2-si azyaşlı hamiləlik kimi qeydiyyata alınmışdır. Hər iki hamiləlik müəyyən ağırlaşmalar ilə nəticələnmişdir. (Birinci hamiləlik vaxtından əvvəl doğuşla, ikinci hamiləlik preeklampsiya ilə müşayiət olunmuşdur);**
- **Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən nikaha daxil olmaq üçün müraciət etmiş 256 erkən nikah yaşında olan (18 yaşadək) gəncin erkən nikahın və qohumlar arasında nikahın həyat və sağlamlığa, həyat keyfiyyətinə, mənəvi-psixoloji inkişafına mənfi təsiri barədə məlumatlandırılması təmin edilmişdir;**
- **Aidiyyəti qurumlarla birgə “Erkən nikaha YOX deyək” adlı videoçarx hazırlanmış, Dövlət Komitəsinin və aidiyyəti qurumların sosial şəbəkə səhifələrində paylaşılmış, eləcə də televiziya vasitəsi ilə nümayiş etdirilmişdir.** Respublikada erkən nikah hallarının dinamikasında azalma qeydə alınsa da, onun tamamilə aradan qaldırılması hələ də mümkün deyil. İl ərzində Ədliyyə Nazirliyinin qeydiyyat orqanlarında Ailə Məcəlləsinin tələblərinə uyğun olaraq yerli icra hakimiy–yətləri tərəfindən nikah yaşı 1 il azaldılmış 139 şəxsin nikahı dövlət qeydiyyatına alınmışdır, onlardan 138-nin qadın, 1-nin isə kişi olduğu müəyyən edilmişdir.

2021-ci ildə qadını nikaha daxil olmağa məcburetmə ilə bağlı cəmi bir cinayət qeydə alınmışdır. Erkən nikahla əlaqəli olan on altı yaşına çatmayanla cinsi əlaqədə olma əməlinə görə 6 cinayət işi başlanılmışdır. Erkən nikah hallarına yol açan təhsildən yayınma hallarının qarşısının alınması sahəsində Dövlət Komitəsi tərəfindən görülmüş tədbirlər nəticəsində 60 nəfər, o cümlədən 21 qız uşağı müəyyən edilərək onların təhsilə cəlb edilməsi təmin olunmuşdur.

Nikahı rəsmi qeydə alınmayan analar tərəfindən doğulan uşaqların sayında cüzi azalma vardır. Belə ki, 2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917 nəfər təşkil etmişdir. Aparılan profilaktik və maarifləndirici tədbirlərin nəticəsi olaraq 2021-cu ildə bu say 267 nəfər azalaraq 1650 nəfər olmuşdur.

## Ananın yaşına görə diri doğulanların sayı

| Ananın yaşı | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|
| NƏFƏR | | | | | | | | | |
| Diri doğulanların sayı - cəmi | 141 901 | 165 643 | 166 210 | 159 464 | 144 041 | 138 982 | 141 179 | 126 571 | 112 753 |
| o cümlədən, aşağıdakı yaş qruplarında olan analar tərəfindən doğulanlar: | | | | | | | | | |
| 15-17 | 2743 | 4103 | 2895 | 2809 | 2421 | 2129 | 2320 | 1917 | 1650 |

*Cədvəldən göründüyü kimi 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı hər il azalır.*

## 2021-ci ildə 15-17 yaşlı (18 yaşadək) qadınlar tərəfindən doğulan uşaqların iqtisadi zonalar üzrə bölgüsü

| İqtisadi rayonların adları | Uşaqların sayı, nəfər |
|---|---|
| **Azərbaycan Respublikası** | **1650** |
| Bakı şəhəri | 113 |
| Abşeron iqtisadi rayonu | 27 |
| Gəncə-Qazax iqtisadi rayonu | 351 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 65 |
| Lənkəran iqtisadi rayonu | 210 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 53 |
| Aran iqtisadi rayonu | 575 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 76 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 46 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | 74 |
| Naxçıvan Muxtar Respublikası | 53 |

*Cədvəldən göründüyü kimi, respublikanın iqtisadi rayonları üzrə 2021-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayında ən yüksək göstərici Aran iqtisadi rayonunun payına düşür (575 nəfər), daha sonra Gəncə-Qazax iqtisadi rayonu (351 nəfər), Lənkəran iqtisadi rayonu (210 nəfər) və Yuxarı Qarabağ iqtisadi rayonu (76 nəfər) bu ardıcıllığı davam etdirir. Ötən illə müqayisədə Abşeron, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq-Şirvan iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında azalmaya doğru müsbət tendensiya müşahidə olunur.*

## Uşaqların doğulanadək cins seçiminin (selektiv abortlar) qarşısının alınması ilə bağlı görülən tədbirlər

AR Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli, 71s nömrəli Sərəncamı ilə “Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı” təsdiq edilmişdir.

Tədbirlər planı əhalinin cins strukturundakı uyğunsuzluqların aradan qaldırılması baxımından müstəsna əhəmiyyət daşıyır. Sənəd doğulan uşaqların cins nisbəti üzrə etibarlı və əlçatan məlumatların və göstəricilərin əldə edilməsi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, gender ayrı-seçkiliyini aradan qaldırma məqsədi ilə qızlara və qadınlara dəstək tədbirlərinin genişləndirilməsi, gender stereotiplərinin aradan qaldırılması istiqamətində təbliğatın və maarifləndirmə tədbirlərinin görülməsi, eləcə də qurumlararası əlaqələrin və əməkdaşlığın gücləndirilməsi kimi əsas istiqamətlər üzrə fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur.

**2021-ci ildə Tədbirlər Planı çərçivəsində aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:**

- Gənclər və İdman, Səhiyyə, Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi birgə əməkdaşlıq çərçivəsində ölkə ərazisində keçirdikləri çoxsaylı maarifləndirici tədbirlərdə selektiv abortların demoqrafik cins nisbətinə mənfi təsiri, abortların reproduktiv sağlamlığa zərərləri ilə bağlı geniş müzakirələr aparılaraq müvafiq həll yollarından danışılmışdır.
- Səhiyyə Nazirliyi tərəfindən 2021-ci il oktyabr ayından etibarən doğulacaq uşağın cinsinin seçilməsinə dair tibb işçiləri arasında sorğunun aparılması layihəsinin icrasına başlanılmış, hazırlıq işləri tamamlanmış, sorğu prosesinə isə 2022-ci ilin yanvar ayında start verilməsi planlaşdırılımışdır. Sorğu vasitəsilə toplanmış məlumatların təhlili əsasında bu sahədə maarifləndirmə üsullarının və materialların təkmilləşdirilməsi və tibb işçiləri arasında məlumatlılığın artırılması nəzərdə tutulur. Bununla yanaşı, Səhiyyə Nazirliyi tərəfindən qəbul olunmuş forma 66-ya dair toplanmış məlumatların təhlili və 2019-2022-ci illərdə əldə edilmiş nəticələrin müqayisəli təhlili layihəsi həyata keçirilir.
- Koreya Beynəlxalq Əməkdaşlıq Agent–liyinin Azərbaycandakı Nümayəndəliyi tərəfindən Azərbaycan Respublikasında onlayn şəkildə “Selektiv abortun qarşısının alınması və ailənin planlaşdırılması haqqında araşdırma başlıqlı KOİCA CİAT Təlim Proqramları təşkil olunmuşdur. Sözügedən təlim proqramlarında Dövlət Komitəsinin 29 əməkdaşı iştirak etmişdir. Təlim proqramının əsas məqsədləri Azərbaycanda qadın məsələləri ilə məşğul olan dövlət qurumları rəsmilərinin selektiv abortların qarşısının alınması və ailə planlaşdırması mövzusundakı biliklərinin artırılması, onların qadınların cinsi və reproduktiv sağlamlığı və hüquqları ilə bağlı siyasəthazırlama və tətbiqetmə qabiliyyətlərinin gücləndirilməsidir.
- Doğulan uşaqlar arasında cins nisbətinin pozulmasının əhalinin demoqrafik strukturuna təsiri və abortların o, cümlədən cinsiyyət seçiminə əsaslanan (selektiv) abortların reproduktiv sağlamlığa zərəri haqqında əhalinin maarifləndirilməsi istiqamətində dövlət orqanlarının informasiya ehtiyatlarına mütəmadi olaraq maarifləndirici materiallar, posterlər yerləşdirilir.

Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq 2021-ci ildə qeydiyyat orqanları tərəfindən doğumu qeydə alınmış **112753 uşaqdan 52310-u qız, 60443-ü isə oğlan cinsindən olmuşdur. Cinslər arasındakı fərq 8133-dür**.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2021-ci ildə diri doğulanların sayı 112284 nəfər olmuşdur. Onlardan 60184 nəfəri oğlan, 52100 nəfəri qızdır. Cinslər arasında fərq 8084 nəfərdir. Ötən il bu rəqəm 8243 nəfər olmuşdur. Statistik göstəricilərin müqayisəsindən aydın olur ki diri doğulanların cins fərqi qismən azalmışdır (159 nəfər).

Cins nisbəti hər 100 qıza 115 oğlan təşkil edir. Bu göstəricinin bioloji normadan yüksək olması ölkədə hələ də uşaqların doğulanadək cins seçiminə məruz qaldığını göstərir.

Ölkədə 2020-ci illə müqayisədə abortların sayı 34719-dan 46877-dək artmışdır. 30-34 yaş qruplarında abortların sayı çoxluq təşkil edir. 15-19 yaş qrupunda abortların sayı ötən illə müqayisədə təqribən iki dəfəyədək artmışdır.

Mövcud statistik göstəricilər hamiləliyin süni pozulma səbəblərinin müəyyən edilməsinə imkan vermir. Bu istiqamətdə tədqiqatların aparılmasına ehtiyac vardır.

Dövlət Komitəsi Sosial Tədqiqatlar Mərkəzi ilə birgə “Azərbaycanda mövcud ailə münasibətləri” mövzusunda sosial-psixoloji təhlil aparmışdır. Təhlildən alınan nəticələrə görə azərbaycan ailəsi ənənəvi patriarxal ailə modelindən müasir-postmodern ailə

modelinə doğru transformasiya prosesindədir. Bu baxımdan hazırki ailə tipi müəyyən dərəcədə "keçid-transformasiya" ailə tipinin xüsusiyyətlərini daşıyır. Ailələrdə fərdi müstəqil seçimlərə qoyulan məhdudiyyətlər tədricən informasiya cəmiyyətinin formalaşması ilə daha sürətlə azalmağa meyillidir.

Tədqiqat zamanı aparılan sorğunun nəticələrinə görə ailədə alınan qərarlarda həm ata, həm də ana yaxından iştirak edir. Məsələn, ailə büdcəsinin idarə olunması (57,5%), asudə vaxtın təşkili (60,6%), gələcək planların qurulması (84,6%) və s. məsələlərdə valideynlərin hər ikisi birlikdə iştirak edib. Övladların sayı ilə bağlı qərarların qəbul edilməsində 48,7% ailədə hər iki valideyn birgə iştirak edib. 73,3% ailədə verilən qərarlara kənar müdaxilə olmasa da, 14,3% ailədə bu və ya digər tezlikdə, 12,1% ailədə isə nadir hallarda kənar təsirlər olur.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, gender bərabərliyi baxımından Azərbaycan ailəsində müsbət tendensiyalar formalaşmaqdadır.

## 1.4. Dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin qorunması

2021-ci ildə idarəetmənin müxtəlif sahələrində qadınların kişilərlə bərabər təmsilçiliyi tam təmin olunmasa da, bu sahədə müsbət inkişaf dinamikası mövcuddur. Əvvəlki illərlə müqayisədə dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyi artmaq üzrədir. Qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarındakı mövcud vəziyyət bunu qeyd etməyə əsas yaradır.

İcra hakimiyyəti orqanlarında 2021-ci ildə rəhbər vəzifələrdə çalışan qadınları sayında əhəmiyyətli dəyişiklik baş verməmişdir.

**Rəhbər vəzifədə çalışan qadınların sayı, nəfərlə**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Vitse-prezident** | **1** | **1** | **1** | **1** | **1** |
| **Nazir** | 1 | 1 | 1 | 1 | 1 |
| **Nazir müavini** | 3 | 6 | 8 | 8 | 9 |
| **Dövlət Komitəsi sədri** | 2 | 2 | 2 | 2 | 2 |
| **Dövlət Komitəsi sədrinin müavini** | 3 | 3 | 3 | 3 | 3 |
| **Yerli icra hakimiyyəti başçısı** | 1 | 1 | 1 | 1 | 2 |
| **Yerli icra hakimiyyəti başçısının müavini** | 77 | 79 | 76 | 72 | 72 |

**Hakim qadınların sayı 91, Milli Məclisdə qadın deputatların sayı 22 nəfərdir.**

*2020 il ilə müqayisədə 2021-ci ildə rəhbər vəzifədə çalışan qadınların sayında artım müşahidə edilir.*

## Dövlət qulluğunda çalışanlar haqqında məlumat

Dövlət İmtahan Mərkəzi istər müsahibələrə qeydiyyat, istərsə də müsahibələr zamanı, həmçinin dövlət orqanları tərəfindən vəzifəyə təyinat aparılarkən cinsi ayrı-seçkiliyə yol verilməməsi, gender bərabərliyinin təmin edilməsi istiqamətində zəruri tədbirləri həyata keçirir.

## Dövlət qulluğuna qəbul üzrə 2021-ci il ərzində keçirilmiş test imtahanında uğur əldə edən namizədlərin yaş və gender bölgüsü haqqında



| | 20-24 | 25-29 | 30-34 | 35-39 | 40-44 | 45-49 | 50-54 | 55-59 | 60+ |
|---|---|---|---|---|---|---|---|---|---|
| QADIN | 1179 | 866 | 301 | 67 | 14 | 9 | 0 | 1 | 0 |
| KİŞİ | 804 | 809 | 239 | 51 | 10 | 4 | 1 | 4 | 0 |

*Test imtahanlarında uğur əldə edən şəxslərin yaş qrupu üzrə bölgüsündə əsasən qadın namizədlərin 20-24, 25-29, 30-34, 35-39, 40-44, 45-49 yaş qrupları üzrə yüksək nəticə əldə etdikləri müşahidə olunur. Ən yüksək göstərici isə 20-24 yaş qrupuna aiddir - 59,46%. 2020-ci ildə bu yaş qrupunun göstəriciləri 55,2% olmuşdur. Artım 4,26% təşkil edir.*

*Kişilər yalnız 50-54 və 55-59 yaş qruplarında fərqlənmişlər.*

## Müsahibələrdə uğur əldə edərək 2020-ci və 2021-ci illər ərzində inzibati vəzifələrə təyin edilmiş şəxslər haqqında



## Müsahibələrdə uğur qazanan namizədlərin gender və yaş bölgüsü haqqında



| | 18-24 | 25-29 | 30-343 | 5-39 | 40-444 | 5-49 | 50-545 | 5-59 | 60-70 |
|---|---|---|---|---|---|---|---|---|---|
| QADIN | 146 | 256 | 118 | 44 | 20 | 13 | 42 | | 3 |
| KİŞİ | 94 | 2931 | 57 | 104 | 59 | 24 | 19 | 33 | 21 |

*Müsahibələrdə uğur əldə edərək vakant vəzifələrə təyin edilmiş şəxslərin gender bölgüsü barədə məlumatlara diqqət etdikdə kişilərin həm müsabiqə, həm ümumi müsahibə, həm də daxili müsahibə üzrə təyinat almış şəxslər arasında üstünlük təşkil etdiyi müşahidə edilir. Bütün yaş qrupları üzrə kişilər üstünlük təşkil etsə də, 18-24 yaş qrupu üzrə təyinat alanlar arasında qadınlar (56,13%) irəlidədir. 2020 illə (54,16%) müqayisədə bu yaş qrupu üzrə 1,9% artım müşahidə olunur.*

*Gender bərabərliyinin təminatı və strateji nöqteyi-nəzərdən 18-24 yaş qrupunda olan qadınların sayının kişilərə nisbətən üstünlük təşkil etməsi cox vacib bir məqamdır. Bu rəqəmlər ali məktəbləri bitirən qadınların dövlət qulluğuna marağının artmasının, dövlət tərəfindən həyata keçirilən maarifləndirmə işlərinin, dövlət qulluğunda kişillərlə qadınların bərabər imkanların yaradılmasının göstəricisidir. Bu rəqəmlər gənc qadınlar arasında yeni bir trendin formalaşmasının təzahürüdür ki, bu da gələcəkdə onların dövlət qulluğunda təmsilciliyinin artmasına təkan verəcək.*

## Müsahibələrdə uğur əldə edərək 2021-ci il ərzində vəzifəyə təyin edilmiş şəxslərin gender və yaş bölgüsü haqqında

| Elanın növü | YAŞ BÖLGÜSÜ | | | | | | | | | | | | | | | | | | CİNSİ | | SAYI |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 18-24 | | 25-29 | | 30-34 | | 35-39 | | 40-44 | | 45-49 | | 50-54 | | 55-59 | | 60-70 | | Kişi | Qadın | |
| | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | K | Q | | | |
| Müsabiqə | 67 | 87 | 156 | 126 | 35 | 34 | 10 | 14 | 5 | 6 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 274 | 268 | 542 |
| Ümumi müsahibə | 0 | 0 | 13 | 4 | 20 | 7 | 16 | 7 | 15 | 6 | 6 | 2 | 5 | 2 | 6 | 1 | 2 | 0 | 83 | 29 | 112 |
| Daxili müsahibə | 1 | 0 | 35 | 20 | 52 | 36 | 57 | 19 | 35 | 10 | 14 | 7 | 17 | 2 | 17 | 1 | 18 | 2 | 246 | 97 | 343 |
| **CƏMİ** | **68** | **87** | **204** | **150** | **107** | **77** | **83** | **40** | **55** | **22** | **21** | **10** | **22** | **4** | **23** | **2** | **20** | **2** | **603** | **394** | **997** |

*Müsbət haldır ki, müsahibələrdə uğur qazanmış şəxslər arasında 2020-ci ilə nisbətən 2021-ci ildə vakant vəzifələrə təyinat sayında artım müşahidə edilir. Belə ki, 2020-ci ildə 734 nəfər vakant inzibati vəzifələrə təyin edilsə də, 2021-ci ildə bu say 263 nəfər (35,83%) artaraq 997-yə çatmışdır.*

## Hüquq-mühafizə orqanları

**Azərbaycan Respublikasının Prokurorluq** orqanlarında hal-hazırda rütbə nəzərdə tutulan vəzifələrdə çalışan işçilərdən 93 nəfəri qadındır, onlar ümumi prokurorluq işçilərinin 7,3%-ni təşkil edir.

Prokurorluq orqanlarının fəaliyyətinin spesifikliyi, işə qəbulla bağlı elan edilmiş müsabiqələrdə müraciət edən namizədlər sırasında qadınların sayının azlığı rütbəli vəzifələrdə qulluq keçən qadın işçilərin sayına təsir göstərir. Buna baxmayaraq, son illər ərzində ali hüquq təhsilli qadınların prokurorluq orqanlarında xidmət keçməyə marağı artdığından işə qəbulla bağlı müraciət edən qadınların sayında da artım müşahidə edilir.

Baş Prokurorluq tərəfindən elan edilmiş 22-ci müsabiqə üzrə 5 may 2021-ci il tarixdə təyinatları verilmiş 100 namizədin 13-ü qadın olmuşdur.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, prokurorluqda rəhbər (yuxarı təsnifat) vəzifələrdə qulluq keçən prokurorluq işçilərinin sayı 235 nəfərdir. Hal-hazırda 1 idarə rəisi, 1 xidmət rəhbəri, 3 idarə rəisinin müavini, 2 rayon prokuroru, 1 rayon prokurorunun müavini qadındır.

Bundan başqa, xidməti fəaliyyətinin icrası zamanı fərqlənmiş 32 qadın prokurorluq işçisi vəzifəsində irəli çəkilərək Baş Prokurorluqda və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində müvafiq prokuror və böyük prokuror vəzifələrinə təyin edilmişdir.

Prokurorluq orqanlarında rütbə nəzərdə tutulmayan vəzifələrdə işləyən mülki işçilər və hərbi prokurorluq orqanlarında xidmət edən prokurorluq işçisi olmayan hərbi qulluqçulardan 486 nəfəri qadındır və ümumi işçi sayının 49%-nı təşkil edir. Prokurorluqda rütbə nəzərdə tutulmayan vəzifələrdə işləyən mülki işçilərin 12 nəfəri dövlət qulluğuna aid rəhbər vəzifələrdə çalışır.

2021-ci ildə prokurorluq orqanlarında çalışan qadınların sayı artaraq 93 nəfərə çatmışdır ki, bu da 2020-ci illə müqayisədə 24% artım deməkdir. 2020-ci ildə rəhbər vəzifələrdə çalışan qadınların sayı 8 nəfər idisə, 2021-ci ildə bu say artaraq 32 nəfər olmuşdur. 2020-ci illə müqayisədə artım 300% təşkil etmişdir.

**Daxili İşlər Nazirliyi** orqanlarında xidmət edən əməkdaşların 10%-nı və ya 3938 (üç min doqquz yüz otuz səkkiz) nəfərini qadınlar təşkil edir. Onlardan 72-si rəhbər vəzifələrdə çalışır.

Həmçinin 2020-ci ildə Daxili İşlər Nazirliyində xidmət edən qadın əməkdaşların sayı 2658 nəfər təşkil edirdisə, 2021-ci ildə bu rəqəm artaraq 3938-ə çatmışdır, bu isə 48,2% artım deməkdir.

Rəqəmlərdən göründüyü kimi, prokurorluq və daxili işlər orqanlarında çalışanlar arasında kişilər üstünlük təşkil edir. Bu göstəricilər daha çox hüquq mühafizə orqanlarında kişilərin daha çox cəlb olunması ənənəsindən formalaşmışdır.

### Ədliyyə Nazirliyinin strukturunda çalışan işçilər haqqında statistik məlumat

| Qurum | Faktiki işçilərin sayı | Qadınların sayı, o, cümlədən rəhbər vəzifədə çalışan qadınların sayı | Rəhbər vəzifədə çalışan kişilərin sayı |
|---|---|---|---|
| Ümumi ədliyyə orqanları üzrə | 7648 | Qadınların sayı - 1342<br>Rəhbər vəzifədə çalışan qadınların sayı - 87 | 576 |

***Ədliyyə Nazirliyinin** həm ümumi ədliyyə orqanlarında, həm də rəhbər vəzifələrdə çalışan qadınların sayı kişilərdən azdır.*

*Qeyd: 21 qadın xüsusi notariusla birgə (cəmi 144 xüsusi notarius var) ədliyyə orqanlarında qadınların ümumi sayı 1363 nəfər (bir min üç yüz altmış üç), rəhbər qadınların sayı 108 (yüz səkkiz) nəfər təşkil edir.*

## Xarici İşlər Nazirliyində çalışan əməkdaşlar haqqında statistik məlumat

| Əməkdaşların sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan qadınların sayı | Rəhbər vəzifədə çalışan kişilərin sayı |
|---|---|---|---|
| 397 | 124 | 3 | 33 |

*Xarici İşlər Nazirliyi əməkdaşlarının ümumi sayında qadınlar 31,23% təşkil edir, rəhbər vəzifələrdə isə qadınların sayı 8,3%-dir. Qurumda kişilərin təmsilçiliyi qadınlardan çoxdur.*

## Diplomatik xidmət orqanlarında çalışan işçilər haqqında statistik məlumat

| Vəzifə | Qadınlar | Kişilər |
|---|---|---|
| Səfir | 2 | 53 |
| Daimi nümayəndə | - | 5 |
| Səfir müavini | 1 | - |
| Daimi nümayəndənin müavini | - | 2 |
| Baş konsul | - | 6 |
| Müşavir elçi | - | 2 |
| Müşavir | 8 | 58 |
| Konsul | 1 | 13 |

*Diplomatik xidmət orqanlarında çalışanlar arasında kişilərin təmsilçiliyi daha üstündür.*

**İqtisadiyyat Nazirliyinin əməkdaşları haqqında statistik məlumat**

| № | Struktur bölmənin adı | İşçilərin ümumi sayı | | | Rəhbər vəzifədə işləyənlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Kişi | Qadin | Cəmi | Kişi | Qadin |
| 1 | Nazirliyin Aparatı, Regional bölmələri, Çağrı mərkəzi, Ticarət nümayəndələri | 488 | 345 | 143 | 88 | 79 | 9 |
| 2 | Dövlət Vergi Xidməti | 3597 | 2816 | 781 | 582 | 528 | 54 |
| 3 | Əmlak Məsələləri Dövlət Xidməti | 2505 | 1742 | 763 | 128 | 114 | 14 |
| 4 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 626 | 415 | 211 | 81 | 69 | 12 |
| 5 | Sahibkarlığın İnkişafı Fondu | 66 | 43 | 23 | 12 | 11 | 1 |
| 6 | "Azərbaycan İnvestisiya Şirkəti" ASC | 41 | 34 | 7 | 11 | 11 | - |
| 7 | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi | 201 | 59 | 142 | 24 | 12 | 12 |
| 8 | Azərbaydanda İxracın və İnvestisiyaların Təşviqi Fondu | 13 | 6 | 7 | 4 | 2 | 2 |
| 9 | "Sumqayıt Kimya Sənaye Parkı" MMC | 101 | 76 | 25 | 18 | 17 | 1 |
| 10 | İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu | 53 | 18 | 35 | 9 | 4 | 5 |
| 11 | "Bakı Biznes Mərkəzi" MMC | 14 | 10 | 4 | 2 | 2 | - |
| 12 | "Tikinti-Təchizat Birliyi" MMC | 24 | 17 | 7 | 8 | 8 | - |
| 13 | Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi | 13 | 7 | 6 | 6 | 3 | 3 |
| | **YEKUN** | **7742** | **5588** | **2154** | **973** | **872** | **101** |

*Təqdim olunan statistikaya əsasən ümumilikdə İqtisadiyyat Nazirliyinin əməkdaşlarının 27,82%-ni qadınlar təşkil etməsinə və cins bölgüsündə kişilərdən irəlidə olmasına baxmayaraq, Kiçik və Orta Biznesin İnkişafı Agentliyində çalışanların ümumi sayında qadınlar 70,65%, agentliyin rəhbər vəzifələrində calışan qadınların nisbəti isə 50%-dir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunda işçilərin ümumi sayında qadınlar 53,85%, rəhbər vəzifələrdə isə 50% təşkil edir. İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda qadınların təmsilçiliyi nəzəri cəlb edir: institut işçilərinin ümumi sayında qadınların payı 66%, rəhbər vəzifələrdə isə 55,56% -dir.*

| Mərkəzi aparatı və tabeli qurumlarında çalışan dövlət qulluqçularının say tərkibi | |
|---|---|
| **İşçilər** | **Sayı** |
| **Ümumi** | 421 |
| **Kişi** | 340 |
| **Qadın** | 81 |
| **Rəhbər vəzifədə çalışan kişilər** | 141 |
| **Rəhbər vəzifədə çalışan qadınlar** | 3 |

| Mərkəzi aparatında çalışan dövlət qulluqçularının say tərkibi | |
|---|---|
| **İşçilər** | **Sayı** |
| **Ümumi** | 107 |
| **Kişi** | 63 |
| **Qadın** | 44 |
| **Rəhbər vəzifədə çalışan kişilər** | 27 |
| **Rəhbər vəzifədə çalışan qadınlar** | 7 |

***Gənclər və İdman nazirliyinin** Mərkəzi aparatı və tabeli qurumlarında çalışan əməkdaşlardan 19,24%, rəhbər vəzifələrdə çalışanlardan 2,08% qadınlardır. Nazirliyin Mərkəzi aparatında çalışan dövlət qulluqçularının say tərkibinə nəzər yetirdikdə qadınların təmsilçiliyinin nisbətən qənaətbəxş olduğu görünür. Burada qadınlar 41,12%, rəhbər vəzifələrdə çalışanlar arasında isə nisbət - 20,59% təşkil edir.*

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi strukturunda çalışan dövlət qulluqçuları barədə məlumat**

| Ümumi say | Kişi | Qadın | Rəhbər vəzifələr üzrə | Kişi | Qadın |
|---|---|---|---|---|---|
| 1263 | 903 | 360 | 393 | 339 | 54 |

***Maliyyə Nazirliyində** də həm rəhbər vəzifədə, həm də inzibati işlərdə kişilər qadınlara nisbətən çoxluq təşkil edir. Ümumi işçi sayında qadınlar 28,5%, rəhbər vəzifələrdə isə 13,74% təşkil edir.*

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin mərkəzi və yerli bölmələrində çalışan işçilər haqqında statistik məlumatlar:**

| Mərkəzi bölmədə çalışanların ümumi sayı | Kişi | Qadın | Rəhbər vəzifələr üzrə ümumi | Kişi | Qadın |
|---|---|---|---|---|---|
| 68 | 20 | 48 | 5 | 4 | 1 |
| **Yerli bölmələrdə çalışanların ümumi sayı** | **Kişi** | **Qadın** | **Rəhbər vəzifələr üzrə ümumi** | **Kişi** | **Qadın** |
| 5259 | 1080 | 4179 | 751 | 464 | 287 |

***Səhiyyə Nazirliyinin** mərkəzi və yerli bölmələrində çalışanların ümumi sayında qadınlar 79,46%, rəhbər vəzifədə çalışanlar arasında isə 38,22% təşkil edir. Göründüyü kimi, rəhbər vəzifələrdə kişilər üstünlük təşkil etsələr də, ümumi əməkdaşların sayında üstünlüyü qadınlar formalaşdırır. Səhiyyə Nazirliyində çalışan işçilərin say bölgüsündə qadınların üstünlük təşkil etməsi ənənəvi olaraq tibb personalının sayında olan qadın çoxluğu prinsipi və eyni zamanda gender bərabərliyinin təminatı sahəsində yaradılmış imkanların effektivliyidir.*

**Azərbaycan Respublikası Energetika Nazirliyi** Aparatının faktiki işçilərinin sayı 136 nəfərdir. Onların 66 nəfərini kişilər, 70 nəfərini qadınlar təşkil edir. Nazirlikdə rəhbər vəzifədə çalışan 46 nəfərdən 34-ü kişi, 12-si qadındır.

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin** Aparatının işçilərinin sayı 33 nəfərdir. Onlardan 19 nəfərini kişilər, 13 nəfərini isə qadınlar təşkil edir. Agentlikdə rəhbər vəzifədə çalışan 7 nəfərdən 6-sı kişi, 1 nəfəri qadındır. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin 231 nəfər işçisindən 80 nəfərini kişi, 51 nəfərini qadınlar təşkil edir. Rəhbər vəzifədə çalışanların 14-dən 10-u kişi, 4 nəfəri isə qadındır.

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mərkəzi aparatı üzrə əməkdaşlar barədə məlumat**

| Kişi əməkdaşların sayı | Qadın əməkdaşların sayı | Cəmi | O cümlədən rəhbər vəzifələrdə | | |
|---|---|---|---|---|---|
| | | | Kişi əməkdaşların sayı | Qadın əməkdaşların sayı | Cəmi |
| 360 | 96 | 456 | 151 | 17 | 168 |

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan ərazi, ixtisaslaşdırılmış gömrük idarələri və digər qurumlar üzrə əməkdaşlar barədə məlumat**

| Kişi əməkdaşların sayı | Qadın əməkdaşların sayı | Cəmi | O cümlədən rəhbər vəzifələrdə | | |
|---|---|---|---|---|---|
| | | | Kişi əməkdaşların sayı | Qadın əməkdaşların sayı | Cəmi |
| 3366 | 1037 | 4403 | 426 | 28 | 454 |

Cədvəldən göründüyü kimi, **Gömrük Komitəsinin** mərkəzi aparatında çalışan qadınların sayı 21,05% -dir. Komitənin strukturuna daxil olan gömrük idarələri və qurumlarının əməkdaşları arasında qadınlar 23,55% təşkil edir.

**Əqli Mülkiyyət Agentliyinin** Aparatının və Agentliyin tabeliyində olan qurumların işçilərinin statistik göstəricilərinin təhlilinə əsasən, çalışan 266 nəfərdən 184 nəfərini (69,2%) qadınlar təşkil edir.

O cümlədən, Agentliyin Aparatı üzrə 67 nəfərdən 35 nəfərini (52,2%), Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi üzrə 66 nəfərdən 46 nəfərini (69,7%), Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi üzrə 35 nəfərdən 14 nəfərini (40%) və Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası üzrə 98 nəfərdən 89 nəfərini (90,8%) qadınlar təşkil edir.

*Göstəricilər Agentlikdə gender bərabərliyinin təmin olunması istiqamətində müsbət dinamikanın müşahidə olunduğunu əks etdirir.*







## Əqli Mülkiyyət Agentliyinin Aparatında və Agentliyin tabeliyində olan qurumlarda rəhbər vəzifədə çalışan işçilər:

*Agentliyin aparatında dövlət qulluğunun inzibati və yardımçı vəzifələrində çalışan 54 əməkdaşı arasında qadınlar 59,3% (32 nəfər), kişilər 40,7% (22 nəfər) təşkil edir. Agentliyin Aparatında 10 şöbə və 15 sektor fəaliyyət göstərir. Aparatda rəhbər vəzifələrdə 14 kişi və 15 qadın çalışır. Agentliyin İdarə Heyətinin sədrinin 2 müşavirindən 1-i qadındır. Bu rəqəmlər Agentlikdə gender balansının kifayət qədər qorunduğunu göstərir. Agentliyin Həmkarlar İttifaqının sədri də qadındır.*

## Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin əməkdaşlarının gender əsaslı bölgüsü

| | |
|---|---|
| Ümumi işçi sayı | 335 nəfər |
| Kişi sayı | 167 nəfər |
| Qadın sayı | 168 nəfər |
| Rəhbər vəzifədə çalışan qadın işçilərin sayı | 18 nəfər |
| Rəhbər vəzifədə çalışan kişi işçilərin sayı | 56 nəfər |

***Dövlət İmtahan Mərkəzinin*** *ümumi işçi sayında qadınlar 50,15% təşkil edir, rəhbər vəzifələrdə təmsil olunan qadınların sayı 24,32%, kişilərin sayı 75,68%-dir. İşçilərin ümumi sayında qadınların üstünlüyü onu deməyə əsas verir ki, rəhbər vəzifələrdə qadınların sayı zamanla arta bilər.*

*“**Azərenerji” Açıq Səhmdar Cəmiyyətində** dövlətin gender siyasətinin tələblərinə uyğun olaraq kişilər və qadınlar üçün bərabər hüquqi imkanlar təmin edilmişdir. Qadınlar üçün ənənəvi olmayan elektroenergetika sahəsində idarəetmənin müxtəlif səviyyələrində qadınların kişilərlə bərabər təmsilçiliyi tam təmin olunmasa da, son illərdə bu sahədə müəyyən inkişaf dinamikası mövcuddur.*

## “Azərenerji” ASC-də çalışan işçilər haqqında statistik məlumat

| “Azərenerji” ASC | |
|---|---|
| **1. İşçilərin ümumi sayı** | 6242 nəfər |
| **onlardan:** | |
| **Qadınların sayı** | 820 nəfər |
| **2. Rəhbər vəzifədə çalışan işçilərin sayı** | 495 nəfər |
| **onlardan:** | |
| **qadınların sayı** | 26 nəfər |
| **kişilərin sayı** | 469 nəfər |

*Göründüyü kimi, qadınlar işçilərin ümumi sayının 13,14%-ni, rəhbər işçilərin isə 24,32%-ni təşkil edir.*

*“**Bakı Metropoliteni” QSC** üzrə görülən işlərin çox hissəsi gecə tuneldə və zərərli şəraitdə yerinə yetirildiyi üçün işçilərin 80%-ni kişilər təşkil edir. Buna baxmayaraq cəmiyyətdə çalışan qadınların əmək fəaliyyətini yaxşılaşdırmaq üçün daim karyera planlamaları həyata keçirilir və karyera yüksəlişi üçün qadınlara lazımi şərait yaradılır. Onların çalışdıqları peşə üzrə kurslarda iştirakı təmin edilir, xidməti fəaliyyəti dəyərləndirilir.*

***Mərkəzi icra hakimiyyəti orqanlarının təqdim etdiyi məlumatlara əsasən aparılan təhlil onu göstərir ki, ümumiyyətlə dövlət qurumlarında gender balansının qorunması istiqamətində müsbət dinamika mövcuddur. Əvvəlki illərə nisbətən dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların rolu və iştirakında artım müşahidə olunur.***

***Əksər mərkəzi icra orqanlarının strukturunda ümumi işçi sayında və rəhbər işçilər sırasında kişilər irəlidə olsalar da, bəzi qurumların işçi bölgüsündə qadınlara daha çox etimad göstərilir. Rəhbər vəzifədə çalışan qadınların sayı qlobal trendlərə uyğun olaraq 2020-ci illə müqayisədə artmışdır.***

# 2-ci BÖLMƏ

**Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı**

(Maddə 7-16)

## 2.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi

Gender bərabərliyinin təmin edilməsi davamlı inkişafın zəruri komponentidir. Bu balansın pozulması təkcə aktual mənəvi-sosial problem deyil, həm də böyük iqtisadi problemdir. Əgər dünyanın əmək qabiliyyətli əhalisinin yarısını təşkil edən qadınlar tam iqtisadi potensialını nümayiş etdirə bilsə, qlobal iqtisadiyyat bundan kifayət qədər dividend əldə edə bilər. Qadınlar əmək bazarında kişilərlə eyni imkanlara malik olsaydılar, qlobal illik ÜDM 2025-ci ilə qədər 28 trilyon ABŞ dolları arta bilərdi ki, bu da ümumi artımın 26%-i deməkdir. Gender bərbərliyinin təmin olunmaması dolayısı ilə investisiya və əhalinin artımına da təsir edir ki, bu da iqtisadi multiplikatorların artımına mane olur.

Dünya ekosisteminin tərkib hissəsi olan Azərbaycanda da əmək bazarında gender balansının qorunması üçün müxtəlif tədbirlər görülür.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 16-cı maddəsinin birinci hissəsində göstərilir ki, "əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəmnində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması qəti qadağandır".

Sosial-iqtisadi sahədə gender fərqlərinin aradan qaldırılması ümumi inkişaf üçün vacib amildir. Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının artması, onların kiçik və orta sahibkarlıqda geniş təmsilçiliyi məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunmasını şərtləndirir ki, burada da əsas məqsəd qadınlarda özünəinam hissini artırmaq, həm öz icmalarına, həm də cəmiyyətə töhfə verə bilmələri üçün şərait yaratmaqdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2022-ci ilin əvvəlinə ölkə əhalilisinin sayı 10156,4 min (on milyon yüz əlli altı tam onda dörd min) nəfər təşkil edir ki, onlardan 50,1% qadınların payına düşür.2021-ci ilin ilkin məlumatına əsasən işsizlərin ümumi sayının 57,7%-ni qadınlar (182,1 min nəfər) təşkil edir. Eyni zamanda qadınlar arasında işsizlik səviyyəsi ümumi respublika üzrə 7,0% səviyyəsində (kişilər arasında-4,9%) müşahidə edilir.

**2021-ci ildə məşğulluq və işsizlik**

*(Sayı, min nəfər və cins üzrə bölgüsü, faizlə)*

| | Min nəfər | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| Məşğul əhalinin sayı | 2408,1 | 2580,1 | 48,28 | 51,72 |
| İşsiz əhalinin sayı | 182,1 | 133,6 | 57,68 | 42,32 |
| İqtisadi fəal əhalinin sayı | 2590,2 | 2713,7 | 48,84 | 51,16 |

*2020-ci ilin məlumatına əsasən işçi qüvvəsinin (iqtisadi fəal əhali) tərkibində qadınlar 48,9% (2567,5 min nəfər), məşğul olanların sayında qadınların xüsusi çəkisi 48,2% (2351,5 min nəfər) təşkil etmişdir. Məşğul qadınların 14,4% ali, 14,0% orta ixtisas, 3,5% peşə və 68,1% orta təhsillidir. Göründüyü kimi, 2020-ci illə müqayisədə 2021-ci ildə göstəricilərdə artım müşahidə olunur.*

2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin regional məşğulluq filiallarında işsiz şəxs kimi 108575 (yüz səkkiz min beş yüz yetmiş beş) nəfər qeydiyyata alınmışdır. Onlardan 22309 (iyirmi iki min üç yüz doqquz) nəfər – 20,55% qadın, 86266 (səksən altı min iki yüz altmış altı) nəfəri – 79,45% isə kişidir. Agentliyin regional məşğulluq filialları tərəfindən qeydiyyata alınmış həmin şəxslərdən 20659 (iyirmi min altı yüz əlli doqquz) nəfəri – 26,61% qadın, 56981 (əlli altı min doqquz yüz səksən bir) nəfəri - 73,39% kişi olmaqla, ümumilikdə 77640 (yetmiş yeddi min altı yüz qırx) nəfər işlə təmin olunmuşdur. Azərbaycanda bu istiqamətdə artım, dünya trendində isə iki il ərzində sabit göstərici müşahidə edilir.

Azərbaycan Respublikasında 2021-ci il üzrə orta aylıq əməkhaqqı 732,1 manat olmuşdur. İlkin məlumatlara görə qadınların orta aylıq əməkhaqqı (558,0 manat) kişilərin orta aylıq əməkhaqqının (847,7 manat) 65,8%-ni təşkil edir.

Müqayisə üçün qeyd edilməlidir ki, 2015-ci ildə bu nisbət 53,9% (müvafiq olaraq 310,5 manat və 576,0 manat), 2020-ci ildə isə 63,3% (müvafiq olaraq 535,6 manat və 830,2 manat) təşkil etmişdir. Gender bərabərliyinin təminatı baxımından bu sahədə müsbət dinamika müşahidə olunur.

2021-ci il ərzində əmək hüquqlarının pozulması ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Əmək Müfəttişliyi Xidmətinə 6951 vətəndaş müraciəti daxil olmuş, onlardan 5285-i (76%) kişilərə, 1666-sı (24%) qadınlara aiddir. Müraciətlər əsasən əmək haqqının və son haqq-hesabın ödənilməməsi (31,4%), işə bərpa (14%), işdən azadolma (7,8%) və digər (46,8%) hallarla bağlı olmuşdur.

2021-ci ildə 12253 (on iki min iki yüz əlli üç) nəfər -62,3% kişi və 7414 (yeddi min dörd yüz on dörd) nəfər -37,7% qadın olmaqla ümumi 19667 (on doqquz min altı yüz altmış yeddi) nəfər sağlamlıq imkanları məhdud olan şəxslər müəyyən edilmişdir. 2021-ci il ərzində 4246 (dörd min iki yüz qırx altı) nəfəri – 38,59% qadın və 6757 (altı min yeddi yüz əlli yeddi) nəfəri -61,41% kişi olmaqla 11003 (on bir min üç) nəfər sağlamlıq imkanları məhdud olan şəxs işsiz kimi qeydiyyata alınmışdır. Hesabat dövrü ərzində sağlamlıq imkanları məhdud 2850 (iki min səkkiz yüz əlli) nəfər şəxs işlə təmin olunmuşdur. Onlardan 446 (dörd yüz qırx altı) nəfəri – 15,65% qadın, 2404 (iki min dörd yüz dörd) nəfəri – 84,35% isə kişidir. Ölkə üzrə əmək pensiyaçılarının sayı 01.01.2022-ci il tarixinə 1 milyon 200 min nəfər və ya ölkə əhalisinin 12%-ni təşkil edir.

Əmək pensiyaçılarının 707 001 (yeddi yüz yeddi min bir) nəfəri və ya 58,89%-i yaşa görə, 347 298 (üç yüz qırx yeddi min iki yüz doxsan səkkiz) nəfəri və ya 28,93%-i əlilliyə görə, 146 176 (yüz qırx altı min yüz yetmiş altı) nəfəri və ya 12,18%-i isə ailə başçısını itirməyə görə pensiya alır. Əmək pensiyaçıları arasında qadınların payı 56%, kişilərin payı isə 44% təşkil edir.




*Qrafikdən göründüyü kimi, yaşa görə və ailə başçısını itirməyə görə əmək pensiyaçılarının arasında qadınlar üstünlük təşkil edir. Belə ki, yaşa görə əmək pensiyaçılarının 60%-i qadın, 40%-i kişi; əlilliyə görə əmək pensiyaçılarının 43%-i qadın, 57%-i kişi; ailə başçısını itirməyə görə əmək pensiyaçılarının 71%-i qadın, 29%-i kişidir.*

## Statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan (mikro, kiçik, orta və iri) fərdi sahibkarların iqtisadi fəaliyyət növləri və cins üzrə bölgüsü

*(01.01.2022-ci il vəziyyətinə)*

| Fəaliyyət növləri | Fərdi sahibkarların sayı | Ondan: | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | QADIN | | | | | KİŞİ | | | | |
| | | *cəmi* | *mikro* | *kiçik* | *orta* | *iri* | *cəmi* | *mikro* | *kiçik* | *orta* | *iri* |
| **CƏMİ** | 1168921 | 25021 | 249776 | 433 | 22 | - | 918690 | 915528 | 2911 | 237 | 14 |
| **O Cümlədən:** | | | | | | | | | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 396672 | 95362 | 95348 | 14 | - | - | 301310 | 301198 | 95 | 16 | 1 |
| Mədənçıxarma sənayesi | 1091 | 57 | 55 | 2 | | - | 1034 | 1012 | 22 | - | - |
| Emal sənayesi | 24898 | 4424 | 4395 | 28 | 1 | - | 20474 | 20247 | 209 | 16 | 2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 86 | 7 | 6 | 1 | - | - | 79 | 72 | 7 | - | - |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 932 | 69 | 67 | 1 | 1 | - | 863 | 858 | 5 | - | - |
| Tikinti | 23615 | 849 | 849 | - | - | - | 22766 | 22697 | 68 | - | 1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 242206 | 50726 | 50448 | 262 | 16 | - | 191480 | 189491 | 1820 | 160 | 9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 130845 | 2798 | 2791 | 7 | - | - | 128047 | 127944 | 99 | 4 | - |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 45383 | 6985 | 6931 | 50 | 4 | - | 38398 | 38015 | 347 | 35 | 1 |
| İnformasiya və rabitə | 11813 | 2427 | 2427 | - | - | - | 9386 | 9375 | 11 | - | - |
| Maliyyə və sığorta fəaliyyəti | 3937 | 1017 | 1017 | - | - | - | 2920 | 2917 | 3 | - | - |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 15581 | 4475 | 4470 | 5 | - | - | 11106 | 11075 | 30 | 1 | - |
| Peşə, elmi və texniki fəaliyyət | 26577 | 8813 | 8813 | - | - | - | 17764 | 17753 | 10 | 1 | - |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 23217 | 8181 | 8180 | 1 | - | - | 15036 | 15009 | 27 | - | - |
| Təhsil | 12327 | 7954 | 7941 | 13 | - | - | 4373 | 4341 | 32 | - | - |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 7469 | 2696 | 2696 | - | - | - | 4773 | 4769 | 4 | - | - |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 14592 | 1936 | 1933 | 3 | - | - | 12656 | 12633 | 22 | 1 | - |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 116566 | 36758 | 36715 | 43 | - | - | 79808 | 79719 | 87 | 2 | - |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 71114 | 14697 | 14694 | 3 | - | - | 56417 | 56403 | 13 | 1 | - |

*Cədvəldən göründüyü kimi, Statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan 1,168,921 (bir milyon yüz altmış səkkiz min doqquz yüz iyirmi bir) fərdi sahibkardan 250231 (iki yüz əlli min iki yüz otuz bir) nəfəri -21,41% qadın, 918690 (doqquz yüz on səkkiz min altı yüz doxsan) nəfəri -78,59% isə kişidir.*

*Müxtəlif fəaliyyət növləri üzrə fərdi sahibkarların gender bölgüsündən məlum olur ki, bütün fəaliyyət sahələrində sahibkar kişilər üstünlük təşkil edir. İri sahibkarlıq növündə isə qadınların payı yoxdur. Lakin orta sahibkar qadınların say göstəricisi onların iri təsərrüfat subyektləri kimi formalaşacağına zəmin yaradacağını proqnozlaşdırır.*

**İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu** tərəfindən 2019-2021-ci illər ərzində 4383 sahibkarlıq subyektinə 432,5 milyon manat, o cümlədən 361 qadın sahibkara 31 milyon manat güzəştli kredit verilmişdir. Maliyyələşdirilmiş layihələr hesabına 11301, o cümlədən qadın sahibkarlar üzrə 983 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

2019-cu il ərzində 1573 sahibkarlıq subyektinə 175 milyon manat, o cümlədən 142 qadın sahibkara 13,8 milyon manat; 2020-ci il ərzində 908 sahibkarlıq subyektinə 126,9 milyon manat, o cümlədən 74 qadın sahibkara 5,2 milyon manat; 2021-ci il ərzində 1902 sahibkarlıq subyektinə 130,6 milyon manat, o cümlədən 145 qadın sahibkara 12 milyon manat güzəştli kredit verilmişdir.

Məlumatdan göründüyü kimi, ötən il ərzində qadın sahibkarlara verilən güzəştli kreditlərin məbləği 2020-ci ilə nisbətən 2 dəfədən artıqdır.

Qadınlar arasında özünüməşğulluğun və sahibkarlığın inkişafı istiqamətində digər qurumların da fəal və effektiv iştirakı müşahidə edilmişdir. Belə ki, 2021-ci ildə qadın sahibkarlıq fəaliyyətinin dəstəklənməsi İqtisadiyyat Nazirliyinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən davam etdirilmişdir.

Xaçmaz KOB İnkişaf Mərkəzinin təlim və məsləhət xidmətlərindən yararlanmış, qiymətləndirmə zamanı biznes planları uğurlu hesab edilən 14 nəfər qadına öz bizneslərini qurmaq üçün Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) ilə Avropa İttifaqının maliyyələşdirdiyi **"Azərbaycan regionlarında dayanıqlı mikro sahibkarlığın inkişafının sürətləndirilməsi" layihəsi** çərçivəsində maliyyə dəstəyi (qrant) göstərilmişdir.

Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq 2021-ci ildən etibarən KOB subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsinə start verilmişdir. Bu istiqamətdə ötən ilin əvvəlində I müsabiqə keçirilmiş və təqdim olunmuş layihələrdən 15-i maliyyələşdirilmişdir ki, onların 3-ü qadın sahibkarlardır.

Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na əsasən KOBİA tərəfindən "Startap" şəhadətnaməsi verilir. Bu şəhadətnamə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir. 2021-ci il ərzində "Startap" şəhadətnaməsi əldə edən 27 KOB subyektindən 3-ü qadın sahibkardır.

2021-ci il ərzində Dövlət Məşğulluq Agentliyi və Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) birlikdə həyata keçirdiyi **"Məktəbim"** layihəsi çərçivəsində Bakı, Şamaxı-İsmayıllı və Masallı-Cəlilabad-Biləsuvar KOBİM-lər tərəfindən qadınlar üçün təşkil olunmuş təlimlər keçirilib.

Təlimlərdə layihəyə cəlb olunmuş 65 qadına KOBİM-lərin ekspertləri tərəfindən məhsul/xidmətlərin maya dəyərinin hesablanması, sərmayə, gəlirlər və xərclər, mənfəət və zərər haqqında hesabatların hazırlanması, digər xərclərin planlaşdırılması və biznes planın tərtib edilməsi istiqamətində məlumat verilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

Eləcə də iştirakçıların öz layihələri üçün biznes planın hazırlanmasına dəstək göstərilmişdir. Bununla yanaşı, **ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) "Özəl sektorun inkişafı" layihəsi** çərçivəsində **"Qadınların milli biznes gündəliyi və koalisiyaların yaradılması"** mövzusunda keçirilən tədbirdə

qadınların iqtisadiyyatda, sahibkarlıq və məşğulluqda artan roluna dair fikir mübadiləsi aparılmışdır.

Qadınlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması, bu sahədə bilik və bacarıqların artırılması, cəlb olunan qadınların əhatə dairəsinin genişləndirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 2021-ci il üzrə özünüməşğulluq proqramı çərçivəsində işsiz şəxslərin kiçik sahibkarlıq fəaliyyətinin formalaşdırılmalarına dəstək istiqamətində də işlər görülmüşdür. 2021-ci il ərzində ölkə üzrə özünüməşğulluq proq–ramına cəlb olunmuş 16232 (on altı min iki yüz otuz iki) nəfərdən 4408-i (dörd min dörd yüz səkkiz) qadınlardan ibarətdir. Həmçinin 446 (dörd yüz qırx altı) sağlamlığı məhdud qadın işlə təmin olunmuşdur.

2021-ci ildə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən də qadın sahibkarların və kənd yerlərində aqrobizneslə məşğul olan fermer qadınların iqtisadi resurslara çıxış imkanının təmin edilməsi istiqamətində də fəaliyyət davam etdirilmişdir.

Belə ki, hesabat ili ərzində kənd təsərrüfatının inkişafı məqsədilə aqrar sektorda çalışan 375 qadın sahibkara 4 262 809 (dörd milyon iki yüz altmış iki min səkkiz yüz doqquz) manat kredit və 3 204 689 (üç milyon iki yüz dörd min altı yüz səksən doqquz) manat güzəşt verilmişdir.

## Aqrar sektor üzrə kredit və güzəşt verilmiş fermerlər barədə məlumat

| | Müraciət sayı (nəfər) | Kreditin məbləği (min manat) | Güzəşt məbləği (min manat) |
|---|---|---|---|
| Kişi | 6065 | 54313,3 | 37607,5 |
| Qadın | 375 | 4262,8 | 3204,6 |
| Cəmi | 6440 | 58576,1 | 40812,1 |

2021-2022-ci illərdə, ümumilikdə 56439 (əlli altı min dörd yüz otuz doqquz) qadın fermerə dövlət büdcəsinin vəsaiti hesabına subsidiya ödənilmişdir.

## Dövlət büdcəsinin vəsaiti hesabına subsidiya almış kişi və qadınların sayı




## Torpaq mülkiyyətçisi olan fermer qadınlar və kişilər barədə məlumatların təhlili

2020-ci ilin 1 yanvar tarixindən etibarən aqrar sahədə subsidiyaların verilməsi "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) vasitəsilə həyata keçirilir.

2021-ci il ərzində EKTİS-də qeydiyyatdan keçmiş fermerlərin ümumi sayı 63651 (altmış üç min altı yüz əlli bir) nəfər olmuşdur ki, onların da 17860 (on yeddi min səkkiz yüz altmış) nəfərini qadın fermerlər təşkil edir.

Həmçinin 2022-ci il 7 aprel tarixinədək EKTİS-də qeydiyyatdan keçmiş fermerlərin ümumi sayı isə 675374 (altı yüz yetmiş beş min üç yüz yetmiş dörd) nəfər olmuşdur ki, onlardan da 171751 (yüz yetmiş bir min yeddi yüz əlli bir) nəfəri qadın fermerlərdir.

Aqrar sahədə də beynəlxalq tərəfdaşlarla birgə qadınların resurslara əlçatanlığının təmin edilməsi istiqamətində layihələr icra edilmişdir. Belə ki, **FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı (FATP) çərçivəsində icra olunan "Qadınların İqtisadi Güclərinin Artırılması – WEP" layihəsi** İsmayıllı, Şamaxı, Balakən, Qax, Şəki, Zaqatala, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Ağdam və Tərtər rayonlarından olan 277 qadının bazara çıxış imkanlarının artırılması üçün şərait yaratmışdır.

Azərbaycanda ilk dəfə FAO-nun "Ölkə gender qiymətləndirilməsi" metodologiyasına əsaslanan "Kənd təsərrüfatı və kənd inkişafının gender təhlili" sənədi hazırlanmış, həmçinin "Gender və Aqrar məsləhət xidmətlərinin qiymətləndirilməsi aləti - GRAST" kitabı azərbaycan dilində nəşr edilmişdir.

Regionlarda aqrar məsləhət xidmətləri göstərən dövlət qurumlarının əməkdaşlarının gender həssaslığına dair biliklərinin artırılması məqsədilə "Genderə həssas kənd məsləhət xidmətləri təminatı"na həsr olunmuş təlim keçirilmişdir. İki günlük təlimdə Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Azərbaycan Kənd Qadınları Assosiasiyasının (AKQA), Azərbaycan Heyvandarlıq Assosiasiyasının nümayəndələri, həmçinin WEP layihəsinin qadın benefisiarları da daxil olmaqla, ümumilikdə 45 nümayəndə iştirak etmişdir.

2021-ci il ərzində Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə tərəfdaşlıq münasibətləri qurulmuş, Kürdəmir rayonunda qadınlar tərəfindən idarə olunan arıçılıq təsərrüfatlarının yaradılması üçün birgə əməkdaşlığa dair razılaşma imzalanmışdır. Əməkdaşlıq çərçivəsində qadınlar arıçılıq üzrə nəzəri və təcrübi təlimlərə cəlb olunmuşlar. Təlimlər modulunu uğurla tamamlayan qadın arıçılar müvafiq sahə üzrə arı yeşikləri, arı ailələri və müxtəlif ləvazimatlarla (çərçivə, arıçı geyimi, mum əridən qurğu, arı şanı, bal süzən qurğu və s.) təmin olunmuşdur.

**Əmək bazarındakı mövcud nəticələr onu göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, xüsusilə orta sahibkarlıq subyektləri (iri sahibkarlıqla məşğul olanlar arasında qadın sahibkar yoxdur) arasında qadınların təmsilçiliyi azdır. Bu onu deməyə əsas verir ki, qeyri-dövlət sektorunda qadınların məşğulluq səviyyəsinin artırılması istiqamətində fəaliyyət davam etdirilməlidir. Özünüməşğulluq çərçivəsində yeni proqramlar hazırlanmalı və qadınlar bu sahəyə mümkün qədər çox cəlb olunmalıdır.**

## 2.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi

Dünyada elm və təhsil sahəsində kişilərlə barabər qadınların müxtəlif sahələr üzrə bilik və bacarıqlarını nümayiş etdirməsinə baxmayaraq burada da kişilərin üstün təmsilçiliyi özünü biruzə verir.

UNESCO-nun 2021-ci ilin "Elm Haqqında Hesabatı"ndakı təhlillərə nəzər saldıqda maraqlı göstəricilərlə qarşılaşmaq mümkündür. Belə ki, rəqəmsal informasiya texnologiyaları, hesablama, fizika, riyaziyyat, mühəndislik ixtisasları üzrə qadınlar kişilər ilə müqayisədə daha az təmsil olunurlar. Qadın tədqiqatçıların sayında da azlıq müşahidə olunur, onların əmək haqları da kişilər ilə müqayisədə aşağıdır. Ümumilikdə dünya qadınlarının cəmi 22% süni intellektlə məşğul olan mütəxəssislərdir. Bu da dünyanın inkişaf etmiş ölkələrinin payına düşür. Lakin buna baxmayraq, dünyanın elm mənzərəsində qadınların rolu nəzərə çarpacaq dərəcədədir:

Belə ki say göstəricilərinə görə dünyada qadın fəlsəfə doktorları - 33%, qadın bakalavr və magistr məzunları - 53%, qadın tədqiqatçılar - 33%, elmlər akademiyalarında çalışan qadınlar - 12%, texnologiya sahəsində vençur kapitalı üçün startaplara rəhbərlik edən qadınların nisbəti - 2% təşkil edir.

Rəqəmlər onu göstərir ki, texnologiya və süni intellekt sahəsində qadınlara daha çox

ehtiyac duyulur. UNESCO sahibkarlıq fəaliyyətinin və süni intellekt sistemlərinin bütün mərhələlərində qadınların iştirakını təşviq etməyə çağırır.

Azərbaycanda elm və təhsil sahəsində qadınların təmsilçiliyi danılmazdır. Bu sahədə gender bərabərliyinin təminatı tam qorunur.

Azərbaycanda təhsil sahəsindəki gender təminatları ilə əlaqədar Qanunun 13-cü maddəsinə görə dövlət kişi və qadınların təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasını təmin edir, mülkiyyət növündən asılı olmayaraq, bütün təhsil müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində bərabər imkanlar yaradılmalıdır.

Qanunda həmçinin dərsliklərin gender bərabərliyi prinsipinə əsaslanması ilə bağlı tələb vardır. Dayanıqlı İnkişaf Məqsədlərinin təhsillə bağlı olan 4-cü məqsədində 2030-cu ilədək bütün qızların və oğlanların, qadınların və kişilərin əlçatan və keyfiyyətli təhsil almalarını təmin etmək hədəfə alınıb. Azərbaycanda kişilərlə bərabər qadınlar da təhsilin bütün pillələrində fəal iştirak edir, gələcək karyeraları istiqamətində davamlı göstəricilərlə irəliləyirlər.

Azərbaycanın ümumtəhsil məktəblərində təhsil alan şağirdlərin ümumi sayı 1 695 686 (bir milyon altı yüz doxsan beş min altı yüz səksən altı) nəfərdir.

Onlardan 787 815 (yeddi yüz səksən yeddi min səkkiz yüz on beş) nəfəri -46,46% qız, 907871 (doqquz yüz yeddi min səkkiz yüz yetmiş bir) nəfəri - 53,54% isə oğlandır.

*Cədvəldən görünür ki, cins bölgüsü arasındakı fərq 120 056 nəfər -7,08%- dir.*

Respublikanın ümumtəhsil məktəblərində 3642 (üç min altı yüz qırx iki) direktordan 1352-si (bir min üç yüz əlli iki), 4677 (dörd min altı yüz yetmiş yeddi) direktor müavinindən 2753-ü (iki min yeddi yüz əlli üç), 143902 (yüz qırx üç min doqquz yüz iki) müəllimdən 121405-i (yüz iyirmi bir min dörd yüz beş) qadındır.

**Respublikanın ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin siniflər üzrə bölgüsü**

| Sinif | Cəmi | Qız | Oğlan |
|---|---|---|---|
| Məktəbəqədər | 100 700 | 46 958 | 53 742 |
| 1 | 158 175 | 74 238 | 83 937 |
| 2 | 159 485 | 74 128 | 85 357 |
| 3 | 160 969 | 75 276 | 85 693 |
| 4 | 161 864 | 75 144 | 86 720 |
| 5 | 163 249 | 75 652 | 87 597 |
| 6 | 161 998 | 75 264 | 86 734 |
| 7 | 153 476 | 70 896 | 82 580 |
| 8 | 148 154 | 68 926 | 79 228 |
| 9 | 133 800 | 61 563 | 72 237 |
| 10 | 102 532 | 47 717 | 54 815 |
| 11 | 91 284 | 42 053 | 49 231 |
| **Cəmi** | **1 695 686** | **787 815** | **907 871** |

## Orta, Peşə və Ali təhsil müəssisələrində təhsil alanlar haqqında məlumat

### *Orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin sayı haqqında məlumat*

| Tabeçilik | Cəmi | onlardan | |
|---|---|---|---|
| | | Qadın | Kişi |
| Dövlət Qurumları tabeliyində | 56868 | 35298 | 21570 |
| Özəllər | 5555 | 3468 | 2087 |
| **Cəmi** | **62423** | **38766** | **23657** |

### *Peşə təhsili müəssisələrində təhsil alan tələbələrin sayı haqqında məlumat*

| Tabeçilik | Cəmi | onlardan | |
|---|---|---|---|
| | | Qadın | Kişi |
| Dövlət Qurumları tabeliyində | 24501 | 8013 | 16488 |
| Özəllər | 170 | 32 | 138 |
| **Cəmi** | **24671** | **8045** | **16626** |

*Orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin müqayisəli statistikasının təhlili onu göstərir ki, qadınlar (62,1%) daha çox orta ixtisas təhsilinə, kişilər isə (67,39%) peşəyönümü təhsilə üstünlük verirlər. Bu göstəricilər həm özəl, həm də dövlət tabeliyində olan təhsil müəssisələrinə aiddir.*

## 2021/2022-ci tədris ilinin əvvəlinə olan məlumat

### *Ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı*

| Tabeçilik | Bakalavriat | | | Magistratura | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | onlardan | | Cəmi | onlardan | |
| | | Qadın | Kişi | | Qadın | Kişi |
| Dövlət Qurumları tabeliyində | 163189 | 81380 | 81809 | 17836 | 8919 | 8917 |
| Özəllər | 22370 | 13399 | 8971 | 1990 | 935 | 1055 |
| **Cəmi** | **185559** | **94779** | **90780** | **19826** | **9854** | **9972** |

*Ali təhsil müəssisələrində təhsil alan tələbələrin say bölgüsünün təhlili onu deməyə əsas verir ki, ölkədə ali təhsilə daha çox önəm verilir. Təhsilin bu pilləsində gender balansı tam təmin olunub, hətta ödənişli əsaslarla bakalavr dərəcəsində təhsil alanların sayında qadınlar (51,08%) üstünlük təşkil edir, magistr dərəcəsində təhsil alanların sayında isə qadınların payı 49,7% -dir.*

I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 03 may 2019-cu il tarixli Sərəncamına əsasən 2020-2021-ci tədris ilində ali məktəbə qəbul olan 306 nəfər fiziki məhdudiyyətli tələbə qızın (282 nəfər bakalavr, 24 nəfər isə magistr pilləsində) təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir.

Bununla yanaşı, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən 532 nəfər

valideyin himayəsindən məhrum olmuş tələbə qızın (503 nəfər bakalavr, 29 nəfər isə magistr pilləsində) təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir.

Hesabat dövründə qadınların təhsilə və əmək bazarına cəlb edilməsi məqsədilə maarifləndirici və peşəyönümü tədbirlər təşkil edilmişdir. Eyni zamanda, peşə təhsili müəssisələri üzrə qəbul planının layihəsi hazırlanarkən qadınların maraqlı olduğu ixtisasların regionlar üzrə bölüşdürülməsinə xüsusi diqqət yetirilmişdir.

2021-ci ilin ilk rübü ərzində Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (JİCA) tərəfindən maliyyələşdirilən **"Tekstil sektorunda keyfiyyətli kadrların hazırlanması üçün Sumqayıtda peşə təhsili müəssisəsində dərzi emalatxanasının qurulması"** mini-qrant layihəsi çərçivəsində Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzində "Dərzi" ixtisası üzrə yeni emalatxana yaradılmışdır. Layihənin əsas məqsədi gənclərin, xüsusilə qadınların peşə təhsilinə cəlb edilməsi, onların məşğulluq imkanlarının artırılması və qadın sahibkarlığının inkişaf etdirilməsidir.

Gənclərin-məzunların əmək bazarına daxil olmasına dəstək məqsədilə 2021-ci ilin mart ayından başlayaraq, müxtəlif peşə təhsili müəssisələrinin nəzdində tələb olunan sahələr üzrə qısamüddətli təlimlərin icrasına başlanılmışdır.

Təlimlər əmək bazarının ehtiyacına uyğun hazırlanır və təcrübəli təlimçilər tərəfindən keçirilir. Təlimlərin əsas məqsədi qısa müddət ərzində qazanılan bilik və bacarıqların sayəsində iştirakçıların karyera qurmaq imkanlarının artırılması və karyera yüksəlişinə dəstək olmaqdır.

Təlimlər əsasən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi tərəfindən keçirilir.

Müraciət etmiş 5000-ə yaxın gənc arasından 1000-ə yaxın iştirakçı seçilərək təlimlərə qatılmışdır. Təlimlər mövcud şəraitə uyğun olaraq, onlayn və əyani məşğələlər formasında keçirilir. İştirakçıların 68%-i işləməyən, yerdə qalanları isə işləyən şəxslərdir.

Bütün ixtisaslarda tədris olunan **"Şəxsi inkişaf və karyera planlaması"** moduluna 2021-ci ildə UNİCEF-in Əsas Həyat Bacarıqlarına (Basic Life Skills) dair mövzuları əlavə edilərək yenilənmişdir. Həmçinin sözügedən modula UN-n Dayanaqlı İnkişaf Məqsədləri (Sustainable Development Goals), Gender bərabərliyi ilə bağlı mövzularının da daxil edilməsi nəzərdə tutulur.

Ali təhsil müəssisələri tələbələrinin gender məsələləri ilə bağlı biliklərinin artırılması məqsədilə universitetlərin bütün fakültələrində "Genderə giriş", "Genderologiyanın əsasları" və digər fənlərdə gender məsələlərinə aid mövzular tədris olunur.

- **Bakı Dövlət Universitetində və Qərbi Kaspi Universitetində isə "Gender və tətbiqi psixologiya" kafedrası fəaliyyət göstərir.**
- **Azərbaycan Universitetində "Gender problemi və müasir Azərbaycan",**
- **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Məişət zorakılığı hallarının qarşısının alınması istiqamətində sosial işin tətbiqi" adlı beynəlxalq konfranslar təşkil olunmuşdur.**

Hər iki konfransın işinə bir neçə xarici universitetdən bu sahədə tanınmış alimlər cəlb edilmiş və cəmiyyətimizdə mövcud olan aktual problemlər müzakirə olunmuşdur.

- **Məktəblərdə tədris olunan "Həyat bilgisi" üzrə fənn kurikulumlarında şagirdlərdə vacib həyati bacarıqların formalaşdırılması ilə bağlı təlim standartlarında gender streotiplərinin aradan qaldırılması ilə bağlı mövzular öz əksini tapmışdır. Təhsildə və karyera seçimində gender bərabərliyi, qızların və gənc qadınların qeyri-ənənəvi sahələrə üstünlük verməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.**

Qadınların təhsilə və əmək bazarına cəlb edilməsi məqsədilə keçirilən maarifləndirici və peşəyönümü tədbirlərdə qızların maraq göstərdiyi ixtisaslar təşviq edilmişdir. Bununla yanaşı peşəyönümü aparıldıqda qızların tədbirlərdə bərabər iştirakı üçün addımlar atılmış, qadınların peşə təhsilinə cəlb olunması üçün valideynlər, müəllimlər arasında da maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

- **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Peşə Təhsili üzrə Dövlət Agentliyi və Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının birgə əməkdaşlığı çərçivəsində "Qızların peşə seçiminə hazırlıq" mövzusunda onlayn maarifləndirmə tədbiri keçirilmişdir.**

Tədbirin məqsədi 10 nömrəli sanatoriya tipli internat məktəbi, 1, 2 və 3 nömrəli internat məktəblərinin yuxarı sinif qızlarının peşə seçiminə dəstək göstərilməsi, onların yeni peşələrə yiyələnməsi və gələcək məşğulluğunun təmin edilməsinə dəstəkdir.

Azərbaycan hökumətinin təhsil siyasətində qadınların təhsilin bütün pillə və səviyyələrində fəal iştirakı və karyera inkişafı əsas prioritetlərdən biridir. Məhz bu siyasətin nəticəsidir ki, təhsil müəssisələrinin rəhbərləri, təhsilalanlar və təhsilverənlər arasında qadınların çəkisi artmaqdadır.

### Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin sayı haqqında məlumat

| Tabeçilik | Professor-müəllim heyətinin sayı | onlardan | |
|---|---|---|---|
| | | Qadın | Kişi |
| Dövlət Qurumları tabeliyində | 12751 | 7161 | 5590 |
| Özəllər | 1437 | 747 | 690 |
| **Cəmi** | **14188** | **7908** | **6280** |

### Orta ixtisas təhsili müəssisələrinin professor-müəllim heyətinin sayı haqqında məlumat

| Tabeçilik | Professor-müəllim heyətinin sayı | onlardan | |
|---|---|---|---|
| | | Qadın | Kişi |
| Dövlət Qurumları tabeliyində | 5905 | 4758 | 1147 |
| Özəllər | 173 | 150 | 23 |
| **Cəmi** | **6078** | **4908** | **1170** |

### Peşə təhsili müəssisələrinin rəhbər və mühəndis-pedaqoji işçilərinin və müəllimlərin sayı haqqında məlumat

| Tabeçilik | Professor-müəllim heyətinin sayı | onlardan | |
|---|---|---|---|
| | | Qadın | Kişi |
| Dövlət Qurumları tabeliyində | 3189 | 1948 | 1241 |
| Özəllər | 21 | 3 | 18 |
| **Cəmi** | **3210** | **1951** | **1259** |

*Orta ixtisas, peşə təhsili və ali təhsil müəssisələrinin professor-müəllim heyətinin say bölgüsündə qadınlar kişilərə nisbətən üstünlük təşkil edir. Qadınların say göstəriciləri ali təhsil müəssisələrində 55,74%, orta ixtisas müəssisələrində 80,75%, peşə təhsili müəssisələrində 60,78%-dir.*

*Cədvəldə (#13) təhsilin müxtəlif sahələri, o cümlədən gender üzrə məzunların cins bölgüsü əks olunub.*

### *#13 Təhsil sahələri üzrə gender bölgüsü göstəriciləri*




## 2021-ci ildə təhsil sahəsində dövlət və özəl sektorda rəhbər vəzifələrdə çalışan qadın və kişilərin sayı

| | Dövlət | | Qeyri-dövlət | | Cəmi | |
|---|---|---|---|---|---|---|
| | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi |
| **MƏKTƏBƏQƏDƏR TƏHSİL** | | | | | | |
| Müdir | 1688 | - | 124 | 12 | 1812 | 12 |
| **ÜMUMİ TƏHSİL** | | | | | | |
| Direktorlar | 1314 | 2302 | 17 | 18 | 1331 | 2320 |
| Direktor müavinləri | 2585 | 1876 | 72 | 21 | 2657 | 1897 |
| **PEŞƏ TƏHSİLİ** | | | | | | |
| Direktorlar | 7 | 83 | - | 1 | 7 | 84 |
| Direktor müavinləri | 43 | 86 | - | 1 | 43 | 87 |

## 2021-ci ildə təhsil sahəsində dövlət və özəl sektorda rəhbər vəzifələrdə çalışan qadın və kişilərin sayı

| | Dövlət | | Qeyri-dövlət | | Cəmi | |
|---|---|---|---|---|---|---|
| | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi |
| **ORTA İXTISAS TƏHSİLİ** | | | | | | |
| Direktorlar | 13 | 40 | 4 | 2 | 17 | 42 |
| Direktor müavinləri | 40 | 66 | 4 | 4 | 44 | 70 |
| Laboratoriya və şöbə müdirləri | 177 | 68 | 14 | 4 | 191 | 72 |
| **ALİ TƏHSİL** | | | | | | |
| Rektorlar | 4 | 37 | 5 | 6 | 9 | 43 |
| Prorektorlar, filial direktorları | 32 | 131 | 10 | 21 | 42 | 152 |
| Laboratoriya və şöbə müdirləri | 285 | 398 | 69 | 49 | 354 | 447 |
| Fakültə dekanları | 47 | 137 | 20 | 20 | 67 | 157 |
| Kafedra müdirləri | 207 | 493 | 50 | 55 | 257 | 548 |

*Təhsil sahəsində dövlət və özəl sektorların rəhbər vəzifələrində çalışanların gender göstəricilərinin təhlilinə əsasən, məktəbəqədər təhsil müəssisəsi istisna olmaqla digər təhsil müəssisələrinin (ümumtəhsil, peşə, orta ixtisas, ali təhsil) rəhbərliyində kişilər üstünlük təşkil edir.*

*Qrafikada (#14) dünyada təhsilin bütün pillələrinə qəbul olunanların gender bölgüsü üzrə statistikası əks olunmuşdur.*

***#14 Təhsil sahəsində gender boşluğu***



## İnformasiya kommunikasiya texnologiyaları sahəsində gender bərabərliyinin təmin edilməsi

Dünyada rəqamsal informasiya kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Azərbaycanda bu sahədə dövlət siyasətini həyata keçirən Rəqamsal İnkişaf və Nəqliyyat Nazirliyidir. Qurumda çalışan işçilərin sayına dair 2021-ci il üzrə statistik məlumatlar.

| Rabitə və Yüksək Texnologiyalar Nazirliyində çalışan işçilərin sayı | İşçilərin ümumi sayı (nəfərlə) | Kişilər (nəfərlə və faizlə) | Qadınlar (nəfərlə və faizlə) |
|---|---|---|---|
| Nazirliyin strukturu üzrə ümumi işçi sayı | 17526 | 11558 (66%) | 5963 (34%) |
| Nazirliyin və tabeliyindəki qurumların mərkəzi idarələri (aparat və baş idarələr) üzrə işçi sayı | 4442 | 3214 (72%) | 1228 (28%) |
| Nazirliyin tabeliyindəki qurumların yerli bölmələri üzrə işçi sayı | 13850 | 9082 (65%) | 4768 (35%) |
| Nazirlik üzrə rəhbər vəzifələrdə çalışan işçi sayı | 2749 | 2049 (75%) | 700 (25%) |

*Cədvəldən görünür ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu üzrə ümumi işçi sayında və rəhbər vəzifələrdə kişilər üstünlük təşkil edir.*

Rəqamsal İnkişaf və Nəqliyyat Nazirliyi 2021-ci ildə gender bərabərliyinin təmin olunması sahəsində maarifləndirici layihələrin həyata keçirililməsini davam etdirmişdir.

Azərbaycanda ilk dəfə olaraq 24.02.2021-ci ildə Avropa İttifaqının dəstəyi və BMT-nin Əhali Fondu (UNFPA), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə onlayn **"Gender bərabərliyi" hakatonu** keçirilmişdir.

Bakı və regionlardan ümumilikdə 16 komanda olmaqla 64 texnologiya həvəskarının iştirak etdiyi hakaton BMT-nin Əhali Fondu (UNFPA) və Qadınlar üzrə Agentliyi (UN Women) tərəfindən icra edilən "Avropa İttifaqı Gender Bərabərliyi naminə: **"Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı"** proqramı çərçivəsində təşkil olunmuşdur.

Hakaton boyunca komandalar qadınlara qarşı zorakılıqla mübarizə, oğlan uşaqlarına verilən üstünlük və qız övladlarının dəyərsizləşdirilməsinin qarşısının alınması, məsuliyyətli atalığın təşviqi, karyera seçimində gender stereotiplərinin aradan qaldırılması, ev işlərində gender bərabərliyinin təmin edilməsi kimi mövzulara töhfə verə biləcək həllərin yaradılması istiqamətində yarışmışlar. Hakatonun sonunda gender bərabərliyi sahəsində innovativ həllərlə bağlı ümumilikdə 16 layihə təqdim olunmuşdur.

Azərbaycanda ilk dəfə olaraq 2021-ci ilin noyabrında keçirilən digər **"Uşaq hüquqları" hakatonu** da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Regional İnkişaf İctimai Birliyi və BMT-nin Uşaq Fondu ilə birgə təşkil edilmişdir. Hakatonun məqsədi uşaq

hüquqları ilə bağlı maarifləndirməni həyata keçirmək, bu sahədə mövcud problemlərin innovativ yollarla həllini təşviq etmək, həmçinin hakaton iştirakçılarına komandada işləyərək son texnologiyalar və yenilikləri sınaqdan keçirmək imkanı yaratmaqdır.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "FemTech" platforması, "AREA" Robotexnika və Mühəndislik Akademiyasının təşkilatçılığı ilə 9-10-cu siniflərin qızları üçün **"Qadınlar və texnoloji inkişaf"** mövzusunda onlayn vebinar keçirilmişdir.

Həmçinin nazirlik "Girls Code Azerbaijan" platforması ilə birlikdə tələbə qızlar üçün **"Proqramlaşdırma: R ilə verilənlərin analizi və vizuallaşdırılması"** mövzusunda tədbir təşkil etmişdir. Tədbirdə R dilinin texnologiyada istifadə yeri və tətbiq üsulları müzakirə olunaraq praktiki nümunələr üzərindən göstərilmiş, iştirakçıların sualları ətraflı cavablandırılmışdır.

## 2.3. Qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi

### Siyasi partiyalar

Ədliyyə Nazirliyindən verilən məlumata görə, Vətəndaş cəmiyyəti inistitutlarının fəaliyyəti ilə bağlı hazırda ölkəmizdə dövlət qeydiyyatından keçmiş 58 siyasi partiya fəaliyyət göstərir, onlardan 2-sinə qadınlar rəhbərlik edir.

Siyasi müstəvini formalaşdıran digər institusional komponentlərə nəzər salmaq zəruridir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Prezidentinin seçkilərinin və Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin, həmçinin referendumların (ümumxalq səsvermələrinin), bələdiyyələrə seçkilərin hazırlanmasını və keçirilməsini təmin edir.

Mərkəzi Seçki Komissiyasının tərkibi siyasi partiya üzvlərindən və bitərəflərdən təşkil olunmaqla 18 nəfərdən ibarətdir. Onlardan 4-ü qadındır. MSK-nın sədri hakim partiyanın – Yeni Azərbaycan Partiyasının təmsilçisidir. 17 üzvdən 5-i YAP-ın, 1-i Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının, 1-i Böyük Quruluş Partiyasının, 1-i Demokratik İslahatlar Partiyasının, 1-i Vətəndaş Həmrəyliyi Partiyasının, 1-i Ana Vətən Partiyasının, 1-i Azərbaycan Demokratik Maarifçilik Partiyasının mənsubu, 6 nəfər isə bitərəfdir.

MSK-nın Katibliyində 67-si kişi, 58-i qadın olmaqla, cəmi 125 işçi fəaliyyət göstərir. Onlardan 17 nəfər kişi və 3 nəfər qadın müxtəlif rəhbər vəzifələrdə çalışır.

Dairə Seçki Komissiyalarının Katibliklərində ümumilikdə 743 işçi fəaliyyət göstərir, onlardan 456 nəfəri kişi, 287 nəfəri isə qadındır. Mərkəzi Seçki Komissiyasının hal-hazırda fəaliyyətdə olan 18 üzvündən 14-ü kişi, 4-ü qadındır, onlardan 3 kişi (sədr, sədr müavini və katib) və 1 qadın (katib) rəhbər vəzifədə təmsil olunur.

125 dairə seçki komissiyasının 1119 (bir min yüz on doqquz) üzvündən 908-i (81,14%) kişi, 211-i (18,86%) qadındır. 122 DSK sədri (97,60%) kişi, 3 DSK sədri (2,40%) qadındır. Dairə seçki komissiyalarının 249 kati–bindən 197-si (79,12%) kişi, 52-si (20,88%) isə qadındır. 5442 (beş min dörd yüz qırx iki) məntəqə seçki komissiyasının 32652(otuz iki min altı yüz əlli iki) üzvündən 20160-ı (61,74%) kişi, 12492-si(38,26%) qadındır. 3934(72,29%) kişi, 1 508 (27,71%) qadın məntəqə seçki komissiyasının sədridir. Məntəqə seçki komissiyalarında fəaliyyət göstərən katiblərin 6528-i (59,98%) kişi, 4356-sı (40,02%) qadındır.

Rəqəmlərə istinadən belə qənaətə gəlmək olur ki, Mərkəzi Seçki Komissiyasında gender bərabərliyinin qorunması üçün həm ümumi işçi sayında, həm də rəhbər vəzifədə qadınların sayının artırılması istiqamətində məqsədyönlü maarifləndirmə və təbliğat işlərinin aparılması labüddür.

Cədvəldən (#15) göründüyü kimi, dünya ölkələri üzrə qadınların siyasi səlahiyyətlərinin artırılması sahəsində aparılan təhlil göstəriciləri də yüksək deyil. Dünya qadınlarının 25% parlamentdə, 21% nazirlik rəhbərliyində, 47%-i isə son 50 ildə dövlət liderleyində təmsil olunub.

***#15 Qadınların siyasi səlahiyyətləndirmə indeksi***




2021-ci il 8 mart tarixində Beynəlxalq Qadınlar Günü ərəfəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi və Komitənin birgə təşkilatçılığı, 31 siyasi partiyanı təmsil edən 50-dən çox qadının iştirakı ilə "Siyasi dialoqda qadınların rolu" mövzusunda keçirilən videokonfrans bu qəbildəndir.

Tədbirdə ölkədə reallaşdırılan sistemli islahatlar, həmçinin siyasi dialoq mühitinin təşviqi istiqamətində görülmüş işlər haqqında məlumat verilmişdir. Eyni zamanda siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam və etibarlı münasibətlərin qorunmasında qadınların əvəzolunmaz rolunun, vətəndaş cəmiyyəti instiutlarının daha fəal mövqe tutmalarının vacibliyi qeyd olunmuşdur.

## Qeyri-Hökumət Təşkilatları

2021-ci ildə Azərbaycanda fəaliyyət göstərən 3582 qeyri-hökumət təşkilatından 424 təşkilatın sədri qadındır.

Hesabat dövrü ərzində **Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi** qrant müsabiqəsi çərçivəsində şəhərlərdə və bölgələrdə bir sıra tədbirlər keçirmişdir. Onların arasında Respublikanın 8 rayonunda (Biləsuvar, Ağcabədi, Bərdə, Sabirabad, Masallı, Şamaxı, Şabran və Quba) 400 gənc arasında erkən nikahlar haqqında keçirilən sorğunu, dəyirmi masaları, maarifləndirici tədbirləri qeyd etmək məqsədəuyğundur.

Bununla yanaşı, Ağdaş, Ucar, İmişli və Zərdab bölgələrində "Məişət zorakılığına son qoyaq" mövzusunda, Abşeron rayonu və Şirvan şəhərində məişət zorakılığı ilə bağlı təlimləri, **"Kənd icmalarında qadın liderlər" adlı layihə** çərçivəsində Qazax rayonunun Daş Salahlı, Çaylı, Xanlıqlar, Qarapapaq, Kosalar, Cəfərli kəndlərində və Yeni qəsəbədə (köçkünlər üçün) "Elektron hökumət" adlı 7 təlimi də qeyd etmək lazımdır. Nəticədə qadınlar gender bərabərliyi sahəsində maarifləndirilmiş və İKT bacarıqlarını inkişaf etdirmək sahəsində praktiki və nəzəri təcrübə əldə etmişdilər.

Agentlik tərəfindən **"Həssas ailələrə dəstək" layihəsində** 43 ailə ilə evlərdə görüş keçirilmiş, psixoloji dəstək verilmişdir. Həmçinin ailə dəyərləri, erkən nikahın fəsadları və mənəvi travmaları haqqında video-çarx çəkilmişdir. Xaçmaz və Siyəzəndə 2 yeniyetmənin erkən nikahının qarşısı alınmış və onlar peşə litseyinə qəbul edilmişdir.

Qrant müsabiqəsi çərçivəsində ümumilikdə 29 QHT maliyyələşdirilmiş, o cümlədən tədbirlər, görüşlər, təlimlər, dəyirmi masalar təşkil edilmiş, tele-verilişlər hazırlanmış, hüquqi və psixoloji yardımlar göstərilmiş, sosial aksiya və sosial çarxlar hazırlanmışdır.

## İctimai Şuraların fəaliyyəti

Son dövrlər ölkəmizdə ictimai iştirakçılıq və ictimai nəzarət mexanizmlərinin yaradılması və inkişafı üçün müxtəlif addımlar atılmaqdadır. Bu prosesdə vətəndaş cəmiyyəti təşkilatlarının rolunu artırmaq üçün mərkəzi və yerli icra hakimiyyətləri yanında İctimai Şuraların fəaliyyətinin genişləndirilməsi də günün vacib tələblərindən biridir.

İctimai Şuralar Azərbaycanda vətəndaş cəmiyyəti ilə hökumət arasında kommunikasiya quran müxtəlif dövlət orqanlarının himayəsi altında yaradılan, əsasən vətəndaş cəmiyyəti institutlarının təmsilçilərindən ibarət məşvərətçi qurumdur.

Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinə görə, Azərbaycan Respublikasının vətəndaşları dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində iştirak etmək hüququna malikdirlər. Vətəndaşlar birbaşa və ya öz nümayəndələri vasitəsilə, o cümlədən İctimai Şuralar vasitəsilə bu hüququ həyata keçirə bilərlər.

Əsas məqsəd vətəndaşları dövlət idarəçi–liyinə cəlb etməkdir.

“Gender bərabərliyinin təminatı haqqında” Qanunun həyata keçirilməsində dövlət qurumları, mərkəzi icra orqanları, QHT-lərlə bərabər İctimai Şuralar da fəaliyyət göstərir. İctimai Şuralar gender bərabərliyi istiqamətində qəbul edilən normativ hüquqi aktların, qanunvericilik təşəbbüslərinin, müxtəlif layihələrin ictimai müzakirəsində yaxından iştirak edir, layihələrə dair rəylərini bildirir, tövsiyələr hazırlayır, habelə geniş ictimaiyyətlə məsləhətləşmələr aparır.

Vətəndaş cəmiyyətinin dövlət qurumları ilə birgə fəaliyyəti vətəndaş-dövlət münasibətlərinin tənzimlənməsində, şəffaflıq prinsipinin təmin olunmasında mühüm rol oynayır. Eyni zamanda, ictimai şuraların fəaliyyətinin sosial media ilə inteqrasiya olunmuş formada reallaşması bu şəffaflığın daha da artmasına gətirib çıxarır.

İctimai Şuralar cəmiyyətin və dövlətin həyatında fəal iştirak edir, qarşıya çıxan problemlərin aradan qaldırılmasında dövlət orqanlarının fəaliyyətinə dəstək verir, qarşılıqlı əlaqələrin və sağlam dialoqun qurulması, qərarların qəbulunda ictimai rəyin, vətəndaş maraqlarının nəzərə alınması istiqamətində fəaliyyətini davam etdirir.

Komitə və nazirliklər yanında İctimai Şuraların tərkibi də gender balansının qorunması prinsipləri əsasında yaradılır.

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK)

**Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasında** mütəmadi olaraq gender məsələləri geniş müzakirə olunur, statistik təhlillər aparılır. Üzv təşkilatlardan məsələyə dair daxil olan məlumatlar ümumiləşdirilir, cinslər arasındakı fərqlər və təcrübələr araşdırılır.

2021-ci il ərzində ümumilikdə həmkarlar ittifaqları üzvlərinin sayında kişilər 47,7%, qadınlar 52,3% təşkil edir. 2020-ci illə müqayisədə həmkarlar ittifaqı təşkilatlarının sayında dəyişikliklər müşahidə olunur. Bu da ölkədə baş verən pandemiya şəraitində iqtisadi aktivliyin azalması ilə əlaqədar bir sıra idarə, müəssisə və təşkilatların ləğv olunması, yenilərinin yaranması, birləşməsi, o cümlədən struktur dəyişikliklərindən irəli gəlir.

Həmkarlar ittifaqlarının üzvlərinin sayında gənclər 18,9%, gənc qadınlar isə 9,54% təşkil edir. Rəhbər vəzifələrdə çalışanlar arasında qadınların sayı 3% artaraq 42,8% olub ki, onlardan 6,18%-i gənc qadınlardır.

Sədr (Prezident) vəzifəsində işləyən qadınların sayı isə 1% artaraq 41,3%, ödənişli vəzifə tutanların sayı 2,7% artaraq 27,7% olub. O cümlədən gənc qadın sədrlərin sayı 32,7% təşkil edir, onlardan ödənişli vəzifə tutan gənc qadınların sayı 5% artaraq 25,9%-ə çatıb.

Əlavə edək ki, 2021-ci il ərzində Azərbaycan həmkarlar ittifaqlarının seçkili orqanlarında (Məclis, İcraiyyə Komitəsi, Rəyasət Heyəti, Təftiş Komissiyası və s.) qadınların sayı 1,9% artaraq 47,1% olub.

Statistika, AHİK-də gender bölgüsünün və balasın tam təmin olunduğunu, qadınlara daha çox etimad göstərildiyini əks etdirir.

Ötən il Azərbaycan həmkarlar ittifaqlarında gender bərabərliyinin təmin edilməsinə və qadın problemlərinə həsr olunmuş 374 seminar, dəyirmi masa və bir sıra başqa tədbirlər keçirilib. Bu tədbirlərdə, o cümlədən 11 beynəlxalq səviyyəli təşkilatların vebinarlarında 7 min nəfərə yaxın sahə həmkarlar ittifaqı respublika komitələrinin nümayəndələri iştirak edib. AHİK-in tabeliyində olan Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası həmkarlar ittifaqı işçiləri üçün gender siyasəti üzrə kurs və treninqlər təşkil edib.

Təlim planına əsasən, 2018-ci ildə bu kurs və treninqlərdə 120 nəfər (56 kişi və 64 qadın), 2019-cu ildə 113 nəfər (75 kişi və 38 qadın), 2021-ci ildə 60 nəfər (15 kişi və 45 qadın) dinləyici bilik və bacarıqlarını artırıb. (Pandemiya ilə əlaqədar olaraq 2020-ci ildə təlimlər keçirilməyib)

Məruzələrin və praktiki məşğələlərin keçirilməsinə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat, Mamalıq və Ginekologiya İnstitutu, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Konstitusiya Məhkəməsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) nümayəndələri və mütəxəssisləri cəlb olunmuşlar.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası qadınların əmək fəaliyyətinin yaxşılaşdırılması istiqamətində ötən il kişi və qadınlar üçün eyni əhəmiyyət kəsb edən məşğulluq, əməkhaqqı, gəlirlərin bölüşdürülməsi, əməyin mühafizəsi, qadınlara qanunla verilmiş hüquqların həyata keçirilməsi üzrə nəzarəti gücləndirib. Belə ki, 2020-ci illə müqayisədə həmkarlar ittifaqlarının strukturlarında fəaliyyət göstərən gender bərabərliyi və qadın problemləri üzrə komissiyaların sayı artaraq 2070-dən 2454-ə çatıb, üzvlərinin sayı isə 9825 nəfər olub.

İş yerlərinin yaradılması və qadınların məşğulluğunun həlli sahəsində həmkarlar ittifaqları ilə işəgötürənlər arasında səmərəli əməkdaşlıq qurulub. Milli səviyyədə Üçtərəfli Baş Saziş, iqtisadiyyat sahələri üzrə tarif sazişləri və kollektiv müqavilələr, müəssisə və təşkilatlarla isə kollektiv müqavilələr bağlanılıb. Bütün bu sənədlərdə gender bərabərliyi aspektlərini ön plana çəkən, perspektivli məsələləri özündə əks etdirən xüsusi bölmələr mövcuddur.

***Beləliklə, yuxarıda qeyd edilən məlumatlar onu deməyə əsas verir ki, Azərbaycanda gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatında müsbət dinamika müşahidə olunmuşdur. Əmək hüquqlarının qorunması sahəsində yeni qanunvericilik təşəbbüsləri irəli sürülmüş və qanunvericilik aktları qəbul edilmiş, qadınların əməyinin asanlaşması üçün mühüm addımlar atılmışdır. Belə ki, Əmək Məcəlləsinin 125-ci maddəsinə yeni 4-cü hissəsinin əlavə edilməsi ilə əlaqədar qanunvericilik təşəbbüsü kişi və qadınların orta aylıq əməkhaqqı səviyyələri arasındakı fərqin azaldılmasına xidmət edəcək, əməyi qadağan olunan 700-ə yaxın peşə (vəzifə) və iş yerini müəyyənləşdirən siyahının ləğvini və bu istiqamətdə yeni normativ layihələrin hazırlanmasını şərtləndirəcək.***

***Təhsil və elm sahəsində də qadınların rolu artmaqdadır. Azərbaycanda savadlılıq səviyyəsinin göstəricisi 100%-ə yaxınlaşır. Magistrlərin 54%, fəlsəfə doktorlarının 51%, elmlər doktorlarının 46% və elmi tədqiqatçıların 56% qadınlardır. Təhsilin bütün səviyyələrində qadınlar kişilərlə bərabər fəal iştirak edir və uğurlar əldə edirlər. Azərbaycanda orta ixtisas təhsili və ali təhsil müəssisələrində qadınların idarəetmədə təmsilçiliyi kişilərə nisbətən üstündür.***

***2020-ci illə müqayisədə qadınların informasiya texnologiyalarına və süni intellektə olan marağı daha da artmış, İKT istiqamətində fəaliyyətləri daha da genişlənmişdir.***

***Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35% qadınlardır. Azərbaycanda bu rəqəm 40% təşkil edir ki, bu da orta dünya göstəricisindən artıqdır.***

# 3-cü

# BÖLMƏ

## Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələr

## 3.1 Nəticələr

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci il üzrə hesabatında əks olunan məlumatların təhlili belə qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda gender bərabərliyi sahəsində müsbət tendensiyalar formalaşmağa başlayıb və bəzi hallarda bu trendlər qlobal göstəriciləri üstələyir.

Əvvəlki illərə nisbətən dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyinin artması müşahidə olunur. 2021-ci ildə inzibati vəzifələrə təyin edilmiş qadınların sayında 2020-ci ilə nisbətən artım özünü göstərir.

Hüquq-mühafizə orqanlarında xidmət etməyə marağı olan qadınların sayında da artım müşahidə olunur. Prokurorluq orqanlarında rütbə nəzərdə tutulmayan vəzifələrdə çalışan qadınlar ümumi işçi sayının 49 %-ni təşkil edir.

Səhiyyə sahəsində 2021-ci ildə sabit tendensiya davam edib. Burada da ümumi işçilərin sayında qadınlar çoxluq təşkil edir.

Profilaktik və maarifləndirici tədbirlərin nəticəsi olaraq 2021-ci ildə erkən nikahların sayında 267 nəfər azalma var.

Dünyada gedən inkişaf proseslərində Azərbaycan ölkənin mövcud iqtisadi, intellektual və təhsil potensialına arxalanır. Təhsil və elm ölkənin gələcək inkişafının əsasları olduğu üçün Azərbaycanda bilik iqtisadiyyatı formalaşır və bu sahədə dövlət tərəfindən ciddi tədbirlər həyata keçirilir. Məhz bu siyasətin məntiqi göstəriciləridir ki, respublikada savadlılıq səviyyəsi 100%-ə yaxındır. Kişilər və qadınlar təhsilin bütün pillələrində bərabər şəkildə fəal iştirak edir.

Ali təhsil müəssisələrində təhsil alan tələbələrin say bölgüsünün təhlilinə əsasən bakalavr dərəcəsində təhsil alanların arasında qadınlar üstünlük (51,08%) təşkil edir.

Orta ixtisas, peşə təhsili və ali təhsil müəssisələrinin professor-müəllim heyətinin gender göstəricilərində qadınların xeyrinə müsbət dinamika mövcuddur. Ali təhsil müəssisələrində çalışanların 55,74%, orta ixtisas müəssisələrində 80,75%, peşə təhsili müəssisələrində 60,78% qadınlardır.

Davos İqtisadi Forumunun məlumatına əsasən, dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35% qadınlardır. Azərbaycanda magistrlərin 54%-nin, fəlsəfə doktorlarının 51%-nin, elmlər doktorlarının 46%-nin və elmi tədqiqatçıların 56%-nin qadınlardan ibarət olduğunu nəzərə alsaq Azərbaycanda bu göstərici 40% təşkil edir və orta dünya göstəricisindən yüksəkdir.

Sahibkarlıqla məşğul olan qadınların uğurları Azərbaycanda formalaşan qadın biznes icmasının sürətlə inkişafına təkan verir. İqtisadi ekosistemin, maliyyə və bank sahəsinin, aqrar məşqulluğun dataları onu deməyə əsas verir ki, cəmiyyətimizdə qadın sahibkarlığı trendi irəliləyən təkamül mərhələsindədir.

Bütün bunlar onu vurğulamağa əsas verir ki, qadınların siyası təmsilçiliyi, iqtisadi sahədəki fəallığı, özəl və dövlət qurumlarında qərarvermə proseslərindəki iştirakı ilə əlaqədar müşahidə edilən dayanıqlı trendlər gender bərabərliyinin təmin edilməsi istiqamətində aparılan məqsədyönlü, sistemli və davamlı fəaliyyətin indikatorlarıdır.

## 3.2. Qarşıya qoyulan vəzifələr və tövsiyələr

Azərbaycan Respublikası 1995-ci ilin 30 iyun tarixində Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına (CEDAW) qoşulduqdan sonra qüvvədə olan normativ hüquqi aktlara və

formalaşmış təcrübəyə əsasən qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikası "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanı qadınların irəli çəkilməsi və gender bərabərliyi baxımından mühüm sənəd hesab edir. Məhz bu səbəbdən də dövlət Konvensiyadan irəli gələn öhdəliklərin tam yerinə yetirilməsi üçün əlverişli şərait yaratmağa çalışır.

2015-ci ildə BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin Azərbaycan Hökumətinin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyasının icrasına dair beşinci dövri məruzəsi üzrə yekun müşahidələri təqdim edilmişdir.

Yekun müşahidələrdə oğlan uşaqlarına üstünlüyün verilməsi faktorunun qarşısının alınmasına yönəlmiş Fəaliyyət Planının qəbul edilməsi, oğlan uşaqlarına üstünlüyün verilməsinə şərait yaradan stereotiplərlə qəti şəkildə mübarizə aparılması və cəmiyyətin bütün sahələrində yayılan cins əsaslı mövcud stereotiplərin aradan qaldırılması halları ilə mübarizə, həmçinin məişət zorakılığının qarşısının alınması üzrə Milli Fəaliyyət Planının qəbul edilməsi tövsiyə edilmişdir.

Sözügedən Komitənin tövsiyələri də nəzərə alınmaqla ötən müddət ərzində Azərbaycan hökuməti bu istiqamətdə sistemli və koordinasiya edilmiş şəkildə fəaliyyətlər həyata keçirmişdir.

"Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı", "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" və "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi yönündə qəbul edilən dövlət aktlarıdır.

Əldə olunan nəticələr göstərir ki, Azərbaycan Respublikası gender bərabərliyinin təmin edilməsi sahəsində iyirmi ildən artıq dövrü əhatə edən müsbət təcrübəyə malikdir. Bu sahədə qanunvericilikdə nəzərdə tutulan dövlət təminatları son illərdə ictimai həyatın bütün sahələrində qadınların kişilərlə bərabər öz hüquq və azadlıqlarını reallaşdırması imkanlarını genişləndirmişdir. Dövlət idarəçiliyində, qərarqəbuletmədə qadınların təmsilçiliyinin artması ictimai həyatın bütün sahələrinə öz müsbət təsirini göstərməkdədir. Dövlət orqanlarında, təşkilatlarda, bələdiyyələrdə, gender komissiyalarında gender məsələlərinə məsul şəxslərin müəyyən edilməsi, gender amilinin siyasətlərə daxil edilməsi, ənənəvi və sosial media vətəndaş cəmiyyətinin bu sahədə fəallaşması xüsusi əhəmiyyət daşıyır.

2021-ci il üzrə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" məlumat onu göstərir ki, beynəlxalq öhdəliklər əsasında dövlətin bütün sahələrində milli qanunvericilik aktlarından çıxış edərək gender bərabərliyinin təminatı istiqamətində müsbət dinamikalı fəaliyyətlər həyata keçirilmişdir və bu sahədəki işlər davam etməkdədir. BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması" Komitəsi Azərbaycanda qanunvericilik islahatları sahəsində əldə olunan tərəqqini, qəbul edilən sənədləri yüksək qiymətləndirərək alqışlayır və müvafiq sahələr üzrə öz tövsiyələrini çatdırır.

Dövlət Komitəsi gender bərabərliyinin təmin edilməsi sahəsində mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edir:

- **BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyasından (CEDAW) irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində fəaliyyətlərin gücləndirilməsi;**

#15 *Dünya regionlarında gender paritetinə nail olmaq üçün tələb olunan zaman*




- "Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2023-2025-ci illər üçün Milli Fəaliyyət Planı"nın layihəsinin qəbul edilməsi;

- "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi;

- Gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi; xüsusilə də məişət zorakılığına görə cərimə ilə bağlı sanksiyalara, tərəflərin barışması əsasında inzibati işlərə hər dəfə xitam verilməsi məsələsinə yenidən baxılması, cinayət qanunvericiliyinə məişət zorakılığı ilə bağlı normaların daxil edilməsi, məişət zorakılığı hallarının araşdırılması üzrə mexanizmin təkmilləşdirilməsi;

- Həyat yoldaşlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olması üçün qanunvericiliyə dəyişikliklərin edilməsi;

- Seksual qısnamaya, ayrı-seçkilyi əks etdirən iş elanlarına görə sanksiyaların müəyyən edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsi;

- Siyasi partiyalarda gender bərabərliyinin qorunması, idarəetmə və qərarqəbuletmədə bərabər təmsilçilik və iştirakçılıq imkanlarının genişləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi

- "Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında" Azərbaycan Respublikası Qanunun qəbul edilməsi (BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin ölkəmizlə bağlı tövsiyələrində də bu öz əksini tapıb)

- Məişət zorakılığından əziyyət çəkən şəxslərə təxirəsalınmaz və hərtərəfli yardımların göstərilməsi, bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun (yeni yardım mərkəzləri, sığınacaqlar, qaynar xətlər) yaradılması;

- Gender əsaslı büdcə siyasəti və praktikasının formalaşdırılması;

- Əmək bazarında qadınların vəziyyəti ilə bağlı hərtərəfli statistik informasiyaların və etibarlı məlumat bazasının formalaşdırılması;
- İş yerlərində seksual qısnama hallarına qarşı tədbirlərin gücləndirilməsi
- Doğulan uşaqlar arasında cins balansının pozulması hallarının qarşısının alınması ilə bağlı tədbirlərinin gücləndirilməsi;
- Qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi;
- Müvafiq olaraq təhsilin bütün pillələrində fənn proqramlarına qadın hüquqları, gender bərabərliyi üzrə mövzuların daxil edilməsi;
- Təhsilin bütün pillələrinə aid tədris resursları üzrə gender ekspertizasının keçirilməsi;
- İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorda gender bərabərliyi mədəniyyətinin təbliği üzrə fəaliyyətlərin gücləndirilməsi;
- İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;
- Gender əsaslı zorakılığın qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin regionlarda daha geniş şəkildə aparılması;
- Kişilərin və oğlanların əmək bazarında azlıq təşkil etdikləri sahələrə onların cəlb edilməsi, bu sahələrdə kişilərə və oğlanlara təsir göstərən gender stereotiplərinni aradan qaldırılması;
- Qadınların, xüsusilə kənd yerlərində yaşayan qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, kişilərlə bərabər iqtisadi hüquqlarının həyata keçirilməsinə hərtərəfli dəstəyin göstərilməsi;
- Qadın sahibkarlığının stimullaşdırılması üzrə yeni mexanizmlərin işlənilməsi;
- Ailə öhdəliyi olan işçilərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsi;
- Qadınların rəqabətliliyinin artırılması məqsədilə əmək bazarında prioritet peşələr üzrə peşə hazırlığının təşkili;

Kişi və qadınların siyasi həyatda, iş yerlərində, ailədə yerinin düzgün müəyyənləşdirilməsi xoşbəxt və firavan həyatın, gözəl cəmiyyətin varlığı deməkdir.

Şərqdə qadınların hüquqlarını tanıyan ilk demokratik ölkə olan Azərbaycan, beynəlxalq təşkilatların qarşıya qoyduğu vəzifə və tösiyələri davamlı yerinə yetirməklə kişi və qadınların bərabərhüquqlu səlahiyyətlərə, imkanlara və imtiyazlara malik olmasını dəstəkləyir, bununla da cəmiyyətin inkişafına əsaslı təkan vermiş olur.



BAKI - 2022